RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 242 (9697) 2 noyabr 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Zəfərin təməl günü

## 31 il öncə Ulu Öndər Heydər Əliyevin çağırışı ilə Azərbaycan Ordusunun müzəffər yürüşünün bünövrəsi qoyuldu

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə gələndə faktiki olaraq ordu yox idi. Buna qədər hakimiyyətdə olmuş siyasi qüvvələrin yarıtmaz idarəçilikləri təməli düzgün qoyulmayan ordu quruculuğunu iflasa uğratmışdı.

Dağınıq və pərakəndə şəkildə olan hərbi hissələr qarşılarında dayanan vəzifələri yerinə yetirmək iqtidarında deyildilər, torpaqlarımız müdafiəsiz qalmışdı. Ona görə Heydər Əliyevin ilk həyata keçirdiyi tədbirlərdən biri Ermənistanın artan hücumlarının qarşısını almaq oldu. Düşmənin ərazilərimizə yeni hücumları və təcavüzü ilə bağlı Ulu Öndər Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti həm də Azərbaycanda ordu quruculuğunun başlanğıcı oldu. Tarixi müraciətində "İndi bizim ordumuz yaranmalı və qurulmalıdır" deyən Heydər Əliyev hamını bu yolda fədakar mübarizəyə, Azərbaycanın müdafiəsinə qalxmağa çağırdı. Məhz bu müraciət Azərbaycanda Prezident Heydər Əliyevin Ali Baş Komandanlığı ilə yeni ordu quruculuğunun əsasını qoydu.

Heydər Əliyev böyük uzaqgörənliklə ordu quruculuğuna mərkəzi komandanlığa tabe olmayan bütün hərbi hissələrin buraxılması ilə başladı. Qısa zamanda vahid komandanlığa əsaslanan yeni hərbi hissələrin formalaşdırılması, torpaqlarımızın müdafiə olunması üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi tezliklə cəbhə xəttindəki vəziyyətdə özünü göstərdi. 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Füzuli istiqamətində, Murovda uğurlu əməliyyatlar həyata keçirildi, işğal olunmuş bəzi yaşayış məskənləri, strateji yüksəkliklər düşməndən azad edildi.

1994-cü ildə atəşkəs sazişinin imzalanmasından sonra Azərbaycanda ordu quruculuğu, ölkənin müdafiə qabiliyyətinin artırılması istiqamətində görülən işlər yeni fazaya daxil oldu. Hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması başa çatdırıldı. Döyüş qabiliyyətinin və peşəkarlığın artırılması, hərbi təhsilin müasir standartlar səviyyəsinə çatdırılması Azərbaycan Silahlı Qüvvələrini yeni keyfiyyət mərhələsinə yüksəltdi.

→ 5

# Paytaxt Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb

### Prezident İlham Əliyev Bakı Dəmiryol Vağzalının və metronun "28 May" stansiyasının qarşısında aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Bakı Dəmiryol Vağzalının və metronun "28 May" stansiyasının qarşısındakı ərazidə aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.



→ 2

# Azərbaycan ilə Somali arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial mövcuddur

### Prezident İlham Əliyev Somalinin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fathudin Ali Mohamedin etimadnaməsini qəbul edib.



→ 2

# İspaniya COP29-da yüksək səviyyədə təmsil olunacaq

### Prezident İlham Əliyev İspaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də İspaniya Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kristina Latore Sançonun etimadnaməsini qəbul edib.



→ 2

# Azərbaycan-Əlcəzair münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur

### Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Abdelmacid Tebbuna

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı - İnqilab Gününün 70-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

1954-cü ilin 1 noyabr günü qardaş Əlcəzair xalqının tarixinə qəhrəmanlıq səhifəsi kimi əbədi olaraq həkk olunmuş, müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilmişdir. Bir əsrdən artıq davam edən amansız müstəmləkəçilik siyasətinə, misli görünməmiş zorakılığa, insanlıq əleyhinə və müharibə cinayətlərinə məruz qalmasına baxmayaraq xalqınız heç bir zaman müstəqillik əzmini itirməmiş, böyük fədakarlığı, cəsarəti ilə, Vətən uğrunda canlarını fəda edən milyonlarla şəhidinin canı və qanı bahasına azadlığını əldə etmişdir.

Hazırda Azərbaycan-Əlcəzair münasibətlərinin inkişaf dinamikası məmnunluq doğurur. Biz bu əlaqələrin daha da genişlənməsinə, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın yeni məzmunla zənginləşməsinə xüsusi önəm veririk.



Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətlərini möhkəmləndirmək, qarşılıqlı faydalı əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Əlcəzair xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2024-cü il*

# Antiazərbaycançı fəaliyyət ölkəmizin haqlı mövqeyinə təsir göstərə bilməz

Bu il Azərbaycanla Ermənistan arasında normallaşma istiqamətində mühüm addımlar atılıb. Artıq sərhədlərin delimitasiya və demarkasiya işlərinə start verilib, iki ölkə arasında sərhəd dirəkləri quraşdırılıb. Həmçinin Qazax rayonunun 30 ildən artıq işğal altında olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri Azərbaycana geri qaytarılıb. Bütün bunlar məhz Azərbaycanın bölgədə sülhü təşviq etməsinin mühüm nəticələridir. Əldə edilən bütün nailiyyətlər ikitərəfli danışıqlar nəticəsində, yəni üçüncü tərəflərin iştirakı olmadan əldə edilib. Bu onu göstərir ki, bölgədə maraqları olan Fransa kimi ölkələr danışıqlar prosesindən nə qədər uzaq dursalar, məsələdə irəliləyiş olar. Hazırda adıçəkilən ölkənin timsalında qərəzli Qərbin regionda sülhü dəstəkləməsini deyil, Ermənistanı silahlandıraraq onu revanşa həvəsləndirməsini müşahidə edirik.

→ 8

# Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın onuncu görüşünün yekunları üzrə mətbuat açıqlaması

**1 noyabr 2024-cü il**

2024-cü il noyabrın 1-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın onuncu görüşü keçirilib.



Yuxarıda qeyd olunan komissiyaların birgə fəaliyyəti haqqında 2024-cü il avqustun 30-da imzalanmış Əsasnamənin 7-ci maddəsinə uyğun olaraq, görüş zamanı Tərəflər həmin Əsasnamənin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların onların dövlətləri tərəfindən yerinə yetirilməsi barədə bildirişləri mübadilə etdilər.

Əsasnamənin 7-ci maddəsinin bu cür prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişin alındığı gündə onun qüvvəyə minməsini təsbit etməsini nəzərə alaraq, Tərəflər vurğuladılar ki, sözügedən Əsasnamə 2024-cü il noyabrın 1-də qüvvəyə minir.

Tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ətrafında fikir mübadiləsi apardılar.

Tərəflər delimitasiya işlərinin görülməsinin qaydası üzrə müvafiq təlimatların layihələrini müzakirə etdilər.

Tərəflər növbəti görüşün keçirilməsinin tarixini və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəldilər.

Komissiyaların görüşü başa çatdıqdan sonra Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan ayrıca olaraq nəqliyyat kommunikasiyaları məsələlərini müzakirə etdilər.

# Paytaxt Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb

## Prezident İlham Əliyev Bakı Dəmiryol Vağzalının və metronun "28 May" stansiyasının qarşısında aparılmış abadlıq və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlət başçısına paytaxtımızda Puşkin küçəsinin Azadlıq prospekti ilə birləşməsindən Dilarə Əliyeva küçəsi ilə kəsişməsinədək olan hissəsində - Bakı Dəmiryol Vağzalı və metronun "28 May" stansiyasının qarşısındakı ərazidə görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 3,5 hektar olan ərazidə minik avtomobillərinin hərəkəti ləğv edilərək, müasir tələblərə cavab verən avtobus, piyada və velosiped zolaqları yaradılıb. Köhnə döşəmə örtükləri ləğv edilərək, qranit bordürlər düzülüb və təqribən 22 min kvadratmetr qranit döşəmə örtüyü salınıb. Ərazidə ümumi sahəsi təqribən 2300 kvadratmetr olan yaşıllıq yaradılıb, İtaliyadan gətirilmiş 200-dən çox ağac, 15 mindən çox kol əkilib, işıqlandırma işləri aparılıb, müasir oturacaqlar quraşdırılıb. Həmçinin müasir tikinti norma və qaydalarına cavab verən 2 fəvvarə, 2 dayanacaq inşa edilib, elektrik avtobusları üçün 4 enerjidoldurma məntəqəsi quraşdırılıb.







Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində ölkəmizin hər yerində, o cümlədən paytaxt Bakıda abadlıq-quruculuq işləri geniş vüsət alıb.

Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasındadır. Bu xüsusda görülən işlər həm paytaxt sakinlərinin və Bakıya gələn çoxsaylı turistlərin istirahəti üçün müvafiq şəraitin yaradılması, həm də şəhərin ekoloji durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlı olduğunu bir daha nümayiş etdirir. COP29-a evsahibliyi edəcək ölkəmizdə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində görülən abadlıq və yenidənqurma işləri də ətraf mühitin sağlamlaşdırılmasına mühüm töhfə verir, eyni zamanda Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir.

# Azərbaycan ilə Somali arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial mövcuddur

## Prezident İlham Əliyev Somalinin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı təbriklərini çatdıran Fathudin Ali Mohamed Somali Prezidentinin bu tədbirdə iştirak edəcəyini bildirərək vurğuladı ki, COP çərçivəsində Azərbaycan və Somali dövlət başçılarının keçiriləcək görüşü münasibətlərimizin inkişafına əlavə təkan verəcək. Səfir əməkdaşlığımızın gündən-günə möhkəmləndiyini qeyd etdi. O, elm və təhsil sahələrində əməkdaşlığa toxundu, hələ sovet dövründə Somalidən çoxsaylı tələbənin Azərbaycanda təhsil aldığını dedi və bu ənənələrin davam etdirilməsində maraqlı olduqlarını vurğuladı.

Prezident İlham Əliyev ticarət, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu qeyd etdi.

Söhbət zamanı müxtəlif səviyyələrdə təmasların önəminə toxunuldu, beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımızdan məmnunluq ifadə olundu.

# İspaniya COP29-da yüksək səviyyədə təmsil olunacaq

## Prezident İlham Əliyev İspaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Valensiya regionunda baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı bir daha başsağlığı verdi və bununla əlaqədar İspaniya Hökumətinin Sədri Pedro Sançezə məktub göndərdiyini qeyd etdi.

Səfir başsağlığına və məktuba görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

O, Azərbaycanın COP29-a evsahibliyi etməsinin və sədrliyinin, həmçinin ölkəmizin iqlim dəyişmələri prosesindəki mübarizəyə töhfə vermək əzminin yüksək qiymətləndirildiyini vurğuladı, bu tədbirin Azərbaycanda uğurla keçiriləcəyinə əminliyini ifadə etdi.



Kristina Latore Sanço bildirdi ki, İspaniya Hökumətinin Sədri COP-un təşkilində Azərbaycan Prezidentinin şəxsi təşəbbüsünü yüksək qiymətləndirir. Səfir iqlim dəyişmələri ilə bağlı mübarizə işində dövlətimizin başçısının fəaliyyətini qeyd edərək, ümumilikdə COP29 kimi mühüm tədbirin təşkilinə görə Azərbaycan tərəfinə və şəxsən dövlətimizin başçısına İspaniya Hökuməti adından minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev COP29-un keçirilməsi ilə bağlı hazırlıq işlərinə bir ildən də az vaxtın olmasına baxmayaraq, bütün işlərin yüksək səviyyədə təşkil edilməsi üçün Azərbaycan tərəfinin böyük səy göstərdiyini dedi.

Dövlətimizin başçısı İspaniya Hökumətinin Sədrinin COP29-da iştirakından məmnunluğunu bildirərək qeyd etdi ki, bu, İspaniya tərəfindən hökumət sədri səviyyəsində ölkəmizə ilk səfər olacaq.

Səfər çərçivəsində keçiriləcək görüşlərin ikitərəfli münasibətlərimizin inkişafına yeni təkan verəcəyinə ümidvarlıq ifadə olundu.

Azərbaycanın füsunkar ölkə və Bakının çox gözəl şəhər olduğunu deyən səfir ölkəmizdən xoş təəssürat aldığını bildirdi.

Görüşdə Azərbaycanla İspaniya arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi, bu xüsusda aidiyyəti dövlət qurumlarının iştirakı ilə işçi qrupunun yaradılması məsələsi qeyd olundu. Ölkələrimiz arasında iqtisadiyyat, ticarət, turizm, energetika və digər sahələrdə əməkdaşlıq üçün geniş perspektivlərin olduğu vurğulandı. Orta dəhlizin İspaniya şirkətlərinin region ölkələri ilə əlaqələrinin inkişafı üçün əlverişli perspektivlər açdığı qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# O.R.Hüseynzadənin Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Orxan Rüfət oğlu Hüseynzadə Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 noyabr 2024-cü il*

# İqtisadi Şuranın növbəti iclası keçirilib

**Noyabrın 1-də İqtisadi Şuranın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün vacib məsələlərdən biri olan aqrar sığorta sistemi, Aqrar Sığorta Fondunun fəaliyyəti, fermerlərin aqrar sığorta risklərinin idarə edilməsi, sığorta qanunvericiliyi, tən-



zimləmə və nəzarət, aqrar sığorta sxeminin konseptual əsaslarının (modelin) təkmilləşdirilməsi, ikinci məsələ kimi işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasında Qarabağ Dirçəliş Fondunun rolu, fondun inkişafının və dayanıqlığının artırılması məqsədilə vəsaitlərdən səmərəli istifadə, investisiyaların idarə olunması və investisiya gəlirlərinin artırılması və üçüncü məsələdə əmək bazarının inkişafı üzrə mövcud vəziyyət, əmək və məşğulluq sahəsində əsas islahatlar, rəqəmsallaşma və çağırışlar, əmək bazarında demoqrafik meyillər, qeyri-formal məşğulluğun aradan qaldırılması və digər cari məsələlər ətraflı müzakirə olunub. Gündəlikdə olan məsələlər üzrə Mərkəzi Bankın sədri Taleh Kazımovun, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin və iqtisadiyyat nazirinin müavini Səməd Bəşirlinin məruzələri dinlənilib. İclasda iştirak edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov da aqrar sığorta sistemi ilə bağlı çıxış edib.

Təqdim olunan məsələlərə dair İqtisadi Şura üzvləri tərəfindən geniş müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şura üzvlərinin təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

Milli Məclisin iclasında

# Bələdiyyələrin maliyyə resurslarına çıxışı artırılır

Noyabrın 1-də parlamentin spikeri Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasın gündəliyi qəbul edildikdən sonra cari məsələlərin müzakirəsinə başlanılıb. Müzakirələrdə Milli Məclis Sədrinin müavini Rafael Hüseynov, parlamentin komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, Siyavuş Novruzov, deputatlar Naqif Həmzəyev, Müşfiq Məmmədli, Əziz Ələkbərov, Əli Məsimli, Ceyhun Məmmədov, Razi Nurullayev, Hikmət Məmmədov çıxış ediblər.

Deputatlar Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi ilə məqsədyönlü siyasət sayəsində dövlətimizin daha da qüdrətləndiyini, iqtisadi inkişafla bağlı proqramların uğurla həyata keçirildiyini, vətəndaşların sosial rifah halının yüksəlməsi istiqamətində təqdirəlayiq addımların atıldığını, əhəmiyyətli infrastruktur layihələrinin icra olunduğunu, torpaqlarımızın 30 illik işğaldan azad edildiyini, suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpa edildiyini vurğulayıblar.

Çıxışlarda qlobal iqlim dəyişmələri və istiləşmə nəticəsində yaranan problemlərdən söhbət açılıb. Ətraf mühitin qorunması və ekoloji vəziyyətin yaxşılaşdırılması ilə əlaqədar Azərbaycanın göstərdiyi səylər qeyd edilib, Prezident İlham Əliyevin alternativ enerji mənbələrindən istifadə olunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirdiyi bildirilib.

Müzakirələrdə həmçinin ölkə və dünya mətbuatında cərəyan edən proseslərə nəzər salınıb. Bildirilib ki, bəzi xarici mətbu orqanlarda ayrı-ayrı vaxtlarda dərc edilən yazılarda, o cümlədən Azərbaycanın Qarabağ bölgəsi, işğaldan azad edilmiş əraziləri, ölkəmizin evsahibliyi ilə keçiriləcək COP29 konfransı ilə bağlı məqalələrdə faktların təhrif edildiyi, qərəzli ittihamların yer aldığı birtərəfli mövqe nümayiş etdirilir. Bununla belə azərbaycanlılara qarşı 30 il ərzində törədilən cinayətlər barədə isə bəhs edilmədiyi təəssüflə qeyd olunub.

Millət vəkilləri dünyada gedən proseslər nəzərə alınaraq, ölkəmizdə ideoloji işin daha da gücləndirilməsinin, gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasının vacibliyindən söhbət açıblar, idmanın inkişaf etdirilməsi sahəsində görülən işlərdən, idmançılarımızın beynəlxalq yarışlarda əldə etdiyi uğurlardan bəhs ediblər. Deputatlar nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı tədbirlərin təqdirəlayiq olduğuna da diqqət çəkiblər.

Çıxışlarda həmçinin anti-Azərbaycan qüvvələrin COP29-la bağlı ölkəmizə qarşı təzyiqləri pislənilib, Qərbi Azərbaycan ərazisi ilə bağlı aparılan araşdırmaların nəticəsi barədə bir sıra faktlara nəzər yetirilib, bəzi problemlərdən, onların həlli istiqamətində görülən işlərdən danışılıb, təkliflər səsləndirilib.

Sonra spiker Sahibə Qafarova iclasın gündəliyində 9 məsələnin olduğunu bildirib.



## Vətəndaşlara göstərilən tibbi xidmətlər təkmilləşdirilir

Parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, layihənin əhalinin dərman vasitələrinə olan ehtiyaclarının qarşılanması, əlçatanlığın və keyfiyyətin artırılması, habelə sığortaolunanların maraqlarının qorunmasına hüquqi zəminin yaradılması məqsədilə hazırlandığını deyib.

Komitə sədri bildirib ki, sənəddə vətəndaşlara göstərilən tibbi xidmətlərin təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi, həmçinin əhalinin dərman vasitələri üzrə xərclərinin minimuma endirilməsi məqsədilə ambulator şəraitdə dərman vasitələrinin buraxılması şərtləri müəyyən edilir. Dəyişikliklərdə həmçinin icbari tibbi sığorta üzrə ambulator dərman vasitələrinin kompensasiya şərtləri, icbari tibbi sığorta çərçivəsində təminat verilən ambulator dərman vasitələrinin xidmətlər zərfi ilə müəyyən edilməsi, icbari tibbi sığorta fondu hesabına ambulator dərman vasitələrinin təminatı kimi məsələlər öz əksini tapıb.

Məsələ ətrafında müzakirələrdə deputatlar Səyyad Salahlı, Vüqar Bayramov, Elşad Musayev, Aqil Abbasov, Rəşad Mahmudov öz fikir və qeydlərini söyləyiblər.

Parlamentin Sədri Sahibə Qafarova çıxışlarda səsləndirilən fikirlərə münasibət bildirərək, Milli Məclisdə dəfələrlə səhiyyə məsələlərinə həsr olunmuş müxtəlif dinləmələrin keçirildiyini, bu gün ölkədə səhiyyə sahəsinin inkişafı istiqamətində uğurlu addımların atıldığını vurğulayıb.

Komitə sədri Əhliman Əmiraslanov qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

## Bələdiyyələrin qrant ala bilmələrinin hüquqi əsasları yaradılır

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirilib ki, layihə bələdiyyələrin maliyyə resurslarına çıxışının artırılması məqsədilə onlara qrant verilməsinin, o cümlədən dövlət tərəfindən qrant verilməsinin hüquqi əsaslarının yaradılması və bundan irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb.

Müzakirələrdə komitə sədri Siyavuş Novruzov, deputatlar Fariz İsmayılzadə, Aydın Mirzəzadə, Azay Quliyev çıxış ediblər, bəzi qeydlərini söyləyiblər.

Komitə sədri Azər Əmiraslanov qaldırılan məsələlərlə bağlı öz fikirlərini açıqladıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Sonra komitə sədri Azər Əmiraslanov "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsindən bəhs edib. Bildirilib ki, adıçəkilən qanunun 21-ci maddəsi ilə daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması zamanı reyestrə daxil edilən bildirişdə göstərilən məlumatların dairəsi təsbit edilir. Təklif edilən qanun layihəsi həmin məlumatların sırasına daşınar əmlakın seriya nömrəsinin də əlavə edilməsinin hüquqi əsaslarını yaradır.

Deputat Bəhruz Məhərrəmov məsələ barədə öz fikirlərini səsləndirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, layihədə ümumilikdə 5 məcəllədə və 6 qanunda dəyişikliklərin edilməsi nəzərdə tutulur. Dəyişikliklərdə Əmək Məcəlləsi, Ticarət Gəmiçiliyi Məcəlləsi, "İcra haqqında", "Banklar haqqında", "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında", "Mediasiya haqqında" qanunların müvafiq maddələrindən "münsiflər" termini çıxarılır, "münsiflər məhkəməsi" termini "arbitraj məhkəməsi" termini ilə əvəz olunur.

Bununla yanaşı, Cinayət Məcəlləsinin müvafiq maddəsində arbitrlərin "yerli, xarici və beynəlxalq arbitrlər" bölgüsü "arbitr" termini ilə əvəz edilir, Cinayət-Prosessual və İnzibati Xətalar məcəllələrinin şahidlərlə bağlı maddələrinə arbitrlər barədə yeni bənd əlavə olunur. Habelə "İcra məmurları haqqında" və "İcra haqqında" qanunlarda "beynəlxalq arbitrajlar", "xarici dövlətlərin arbitrajları" terminləri çıxarılır, müvafiq olaraq, "Azərbaycan Respublikasının və xarici dövlətlərin məhkəmələri", "xarici və yerli arbitraj məhkəmələri" ifadələrindən istifadə edilir. "Dövlət rüsumu haqqında" qanuna arbitraj institutu ilə bağlı rüsumlar barədə, "İcra haqqında" qanuna isə arbitraj məhkəmələrinin icra sənədlərinin icraya yönəldilməsi müddətləri barədə yeni maddələr əlavə edilir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov rəhbərlik etdikləri komitələrin bu məsələyə dair rəylərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinin mahiyyətini açıqlayıb. Bildirilib ki, dəyişikliyin əsas məqsədi ölkədə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsil müəssisələrinin sayının artırılması və həmin təhsil pilləsinin təkmilləşdirilməsidir.

Müzakirələrdə Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, komitə sədrləri Fazil Mustafa, Siyavuş Novruzov məsələ barədə öz fikirlərini açıqlayıblar, dəyişikliklərin vacibliyini qeyd ediblər.

Komitə sədri Arzu Nağıyev qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

## Uşaq müəssisələrində xidmətlərin təşkili diqqət mərkəzindədir

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O bildirib ki, bu sənəd uşaqların hüquqlarının qorunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Təqdim olunan qanun layihəsi "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Prezidentinin 2020-ci il 27 noyabr tarixli sərəncamının icrasının təmin edilməsi məqsədi ilə hazırlanıb. Layihədə qeyd edilən tələblər uşaq müəssisələrində xidmətlərin təşkili, yaşayış şəraiti, qidalanma, sağlamlığın mühafizəsi, təlim-tərbiyə və asudə vaxtın təşkili sahələrini əhatə edir. Hazırlanmış tələblərin uşaq müəssisələrində keçirilən monitorinqlərdə istifadə edilməsi nəzərdə tutulur.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc qeyd olunan dəyişikliklərin mütərəqqi olduğunu deyib, məsələ barədə bu komitənin müsbət rəy verdiyini bildirib.

Vitse-spiker Rafael Hüseynov, deputatlar Nigar Məmmədova, Vüqar İskəndərov, Hikmət Məmmədov sənəd barədə qeyd və təkliflərini səsləndiriblər.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

## Valideynlərini itirmiş uşaqlara ilk dəfə işə düzələn zaman 6000 manat birdəfəlik müavinət verilməsi təklif olunur

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə danışıb. O, layihə ilə bağlı birinci oxunuş zamanı ətraflı məlumat verildiyini, ikinci oxunuşda komitəyə əlavə təklifin daxil olmadığını, mətndə heç bir dəyişikliyin edilmədiyini deyib deputatları sənədi dəstəkləməyə çağırıb.

Layihə sosial ödənişlərin təyin olunması və bunun hüquqi əsaslarının mütəmadi təkmilləşdirilməsi, vətəndaş məmnunluğunun artırılması məqsədilə hazırlanıb. Sənəddə daha effektiv sosial təminat prinsipinin tətbiq edilməsi və digər qanunvericilik aktlarına uyğunlaşdırılma məqsədilə sözügedən kateqoriyadan olan uşaqlara, habelə onların arasından olan şəxslərə ilk dəfə işə düzələn zaman onlara ödənilən birdəfəlik müavinətin hazırda ölkə üzrə orta aylıq nominal əməkhaqqının məbləği nəzərə alınmaqla 6000 manat müəyyən edilməsi təklif olunur.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məsələ barədə rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini açıqlayaraq, ölkəmizdə həssas qrupa aid olan insanların hüquqlarının qorunmasının, onların sosial müdafiəsinin gücləndirilməsinin hər zaman prioritet məsələlərdən olduğunu, bu sahədə qanunvericiliyin davamlı olaraq təkmilləşdirildiyini vurğulayıb.

Məsələ ətrafında müzakirələrdə deputatlar Razi Nurullayev və Arzuxan Əli-zadə çıxış ediblər. Komitə sədri Musa Quliyev millət vəkillərinin səsləndirdiyi sualları cavablandırdıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə layihəni (ikinci oxunuş) təqdim edib. O, birinci oxunuş zamanı məsələ barədə geniş məlumat verildiyini, hər hansı dəyişikliyin olmadığını deyib və layihənin səsə qoyulmasını xahiş edib.

Layihədə dövlət qulluğunun xüsusi növünü tənzimləyən qanunlara ixtisas dərəcələrinin, xüsusi, hərbi və diplomatik rütbələrin nəzərə alınması ilə bağlı maddələr əlavə olunur. Belə ki, dövlət qulluğunun xüsusi növünə işə qəbul olunan şəxslərin malik olduqları ixtisas dərəcələri, xüsusi, hərbi və diplomatik rütbələri müvafiq xüsusi rütbələrlə uyğunlaşdırılacaqdır.

Müzakirələrdə parlamentin komitə sədri Siyavuş Novruzov təklif olunan dəyişikliklərin təqdirəlayiq olduğunu deyib və bəzi qeydlərini açıqlayıb.

Deputat Əminə Ağazadə səsləndirilən fikirlərə münasibət bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev sonuncu məsələni - "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, qanun layihəsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Prezidenti tərəfindən irəli sürülüb. Təklif edilən dəyişikliyə əsasən, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşlarının bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə ölkəmizin kəşfiyyat və əks-kəşfiyyat subyektlərinin hüquqlarının genişləndirilərək xarici dövlətlərin xüsusi xidmət və hüquq-mühafizə orqanları ilə müvafiq proqramlar çərçivəsində kadrların hazırlanması, təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində də əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur.

Milli Məclis Sədrinin müavini Rafael Hüseynov və deputat Qüdrət Həsənquliyev öz fikirlərini səsləndirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycan-Rusiya əlaqələrinin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunub



**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasının Azərbaycandakı səfiri Mixail Yevdokimov ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunaraq, dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əlaqələrin genişlənməsində mühüm rolu qeyd edilib. Bu mənada Rusiya Prezidenti Vladimir Putinin cari ilin avqust ayında Azərbaycana dövlət səfərinin, Azərbaycan Prezidenti İlham Əliyevin oktyabr ayında Rusiyaya iki səfərinin ölkələrimiz arasında münasibətlərin dinamikasına müsbət təsirləri vurğulanıb.

Söhbət zamanı ölkələrimizin digər sahələrdə olduğu kimi, qanunvericilik orqanları arasında da əlaqələrin inkişaf etdiyi bildirilərək, parlamentlərimizin bir sıra beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığı diqqətə çəkilib. Tərəflər qarşıdakı dövrdə də bu istiqamətdə əlaqələrin uğurla davam edəcəyinə inamlarını bildiriblər.

Görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a hazırlıqla bağlı görülən işlər barədə də söhbət açılıb. Rusiya Federasiyasının həm COP29, həm də COP29 çərçivəsində keçiriləcək parlament konfransında yüksək səviyyədə iştirak edəcəyi bildirilib. Bu mühüm beynəlxalq tədbirin siyasiləşdirilməsi cəhdlərinin yolverilməz olduğu qeyd edilib. Azərbaycanın qlobal problemlərin həllinə töhfələri yüksək qiymətləndirilib.

Söhbət zamanı Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul etdiyi qərəzli sənədlər və təşkilatın anti-Azərbaycan fəaliyyəti tənqid edilib. Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, AP-nin bu addımları parlamentarizm ruhuna uyğun deyil və ölkəmiz Avropa Parlamentinin reallıqları təhrif edən, qeyri-obyektiv və birtərəfli qətnamələrini qəti şəkildə rədd edir. O, parlamentlər arasında əlaqələrdə obyektiv fikirlərin, dialoqun əhəmiyyətini qeyd edib.

*"Azərbaycan"*

# Fəal siyasi dialoq Azərbaycan-Qırğızıstan əlaqələrinin dinamikasına çox mühüm təsir edir

**Milli Məclisin Sədri Sahibə Qafarova Qırğızıstanın Azərbaycandakı səfiri Maksat Mamıtkanov ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə xalqlarımızın ortaq tarixinin, mədəniyyətinin, dil və dininin ölkələrimiz arasında əlaqələrin inkişafında əsas rol oynadığı bildirilib. Qeyd olunub ki, müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasındakı əlaqələr dostluq və qarşılıqlı anlaşma prinsipləri əsasında davamlı inkişaf edib.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin və görüşlərin müstəsna rolu qeyd edilərək vurğulanıb ki, prezidentlərimiz arasında qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlər, fəal siyasi dialoq iki ölkə arasında əlaqələrin dinamikasına çox mühüm təsir edir.

Görüşdə qeyd olunub ki, bu gün qanunvericilik orqanlarımız arasında səmərəli əməkdaşlıq qurulub. Parlament sədrlərinin və üzvlərinin qarşılıqlı səfərləri, deputatlarımızın müxtəlif beynəlxalq və regional təşkilatlar çərçivəsində daimi təmasları bu əməkdaşlığın inkişafına töhfə verir.

COP29-a hazırlığın yüksək sürətlə davam etdiyinin qeyd olunduğu görüşdə səfir Maksat Mamıtkanov qardaş ölkə kimi Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərə sevindiklərini bildirib.

Diplomat Milli Məclisə seçkilərin uğurla keçirilməsi və Sahibə Qafarovanın yenidən parlamentin sədri seçilməsi münasibətilə təbriklərini çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

**Noyabrın 1-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Azər Əmiraslanov gündəlikdə iki məsələnin olduğunu bildirib.

Qeyd edilib ki, birinci məsələ Toğrul Nəcəfəli oğlu Əliyevin, Gülər Azər qızı Paşayevanın, Əli İsmayıl oğlu Əhmədovun və Vüsal Cahangir oğlu Xəlilovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvləri təyin edilməsi, ikinci məsələ isə Rəşad Temraz oğlu Orucovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvü vəzifəsindən azad edilməsi haqqındadır.

Komitə sədri Mərkəzi Bankın İdarə Heyətinin təşkili prinsiplərindən söz açıb və təqdim olunan namizədlərin qoyulan tələblərə cavab verdiyini deyib. Namizədlərin peşəkarlıqlarından danışan Azər Əmiraslanov Mərkəzi Bankda yüksək vəzifə tutan bu şəxslərin idarə heyətinə daxil edilmələrinin qurumun funksionallığının artırılması baxımından əhəmiyyətini vurğulayıb.

Müzakirədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov, komitə üzvləri Heydər Əsədov, Ziyad Səmədzadə, Vüqar Bayramov, Aydın Hüseynov, Əlibala Məhərrəmzadə və Rövşən Muradov çıxış ediblər. Deputatlar Mərkəzi Bankın İdarə Heyətinin üzvlüyünə təqdim olunan namizədlərin bank və maliyyə sektorunda fəaliyyətlərini, beynəlxalq iş təcrübələrini yüksək qiymətləndiriblər və onlara uğurlar diləyiblər.

Mərkəzi Bankın baş direktoru Gülər Paşayeva söz alaraq namizədlərin adından ölkə Prezidentinə göstərilən etimada görə minnətdarlıq ifadə edib, komitə üzvlərinə onların namizədliklərini dəstəklədiklərinə görə təşəkkürünü bildirib.

Müzakirələrin sonunda komitə üzvləri hər iki məsələni baxılmaq üçün Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

*"Azərbaycan"*

# Leyla Əliyevanın iştirakı ilə Sabunçu rayonunda ağacəkmə aksiyası keçirilib









**Noyabrın 1-də Bakının Sabunçu rayonu ərazisində ağacəkmə aksiyası keçirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva aksiyada iştirak edib.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) və COP29 könüllülərinin qatıldıqları aksiyada 1000 ədəd Eldar şamı ağacı əkilib.

Ağacəkmə aksiyası 2024-cü ilin Azərbaycan Respublikası Prezidenti tərəfindən "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi çərçivəsində ölkəmizdə yaşıllıq zolaqlarının artırılması və ətraf mühitin mühafizəsinə daha bir töhfə kimi dəyərləndirilə bilər. Aksiya eyni zamanda ölkəmizdə keçiriləcək COP29 konfransına dəstəyin və ümumiyyətlə, təbiətin qorunması ilə bağlı təşəbbüslərə həmrəyliyin ifadəsidir.

Qeyd edək ki, Leyla Əliyevanın rəhbərlik etdiyi "IDEA" İctimai Birliyi Azərbaycanda ekoloji tarazlığın bərpası, təbiətə töhfə vermək, insanların diqqətini yaşıllıqların qorunmasına yönəltmək, eləcə də ətraf mühitin mühafizəsi işində ictimai nəzarəti gücləndirmək məqsədi daşıyan çoxsaylı layihələr icra edir.

Ölkəmizdə yeni yaşıllıqların salınması, mövcudlarının qorunması ilə yanaşı, eyni zamanda əvvəllər heç bir yaşıllıq olmayan sahələrdə də ağacəkmə aksiyalarının keçirilməsi ekoloji durumun yaxşılaşdırılması, yaşıllıq zonalarının artırılması istiqamətində önəmli addımlardandır.



# Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası və Medianın İnkişafı Agentliyi birgə açıqlama yayıb

**"X" sosial media platformasında Azərbaycan Respublikasında keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) əleyhinə genişmiqyaslı aktiv kampaniya aparan əksər profillərin koordinasiya olunmuş şəkildə və kütləvi formada saxta hesablardan istifadə etməsi faktları aşkarlanıb. Saxta profillər #COP29 həştəqi altında eyni anda, eyni məzmunlu avtomatlaşdırılmış cavablar yerləşdirərək bot sistemləri vasitəsilə məzmun manipulyasiyası həyata keçirir və beləliklə də, ictimai rəyi çaşdırmağa cəhd göstərir".**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasının və Medianın İnkişafı Agentliyinin birgə açıqlamasında bildirilib.

Vurğulanıb ki, saxta məlumatlar əsasında təşkil olunmuş bu fəaliyyətlərin əsas məqsədi COP29 ərəfəsində guya Azərbaycanın evsahibliyi ilə bağlı kütləvi narazılığın olması illüziyasını yaratmaqdır.

"Qeyd edək ki, bu ilin noyabrında Bakı şəhərində təşkil ediləcək COP29-la bağlı effektiv kommunikasiya strategiyası həyata keçirilir və ictimaiyyət operativ qaydada məlumatlandırılır.

Vətəndaşlarımızı və beynəlxalq ictimaiyyəti bu tip çaşdırıcı məlumatların təsirinə düşməməyə və yalnız rəsmi mənbələrdən əldə olunan informasiyaya istinad etməyə çağırırıq.

Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası və Medianın İnkişafı Agentliyi "X" sosial media platformasını saxta məlumatlar əsasında aparılan bu informasiya kampaniyasını araşdırmağa çağırır", - deyə açıqlamada diqqətə çatdırılıb.

# *İcma:* "UNESCO nümayəndəsinin Ermənistanın əsassız iddialarına yer verməsi qəbuledilməzdir"

**"Biz, Qərbi Azərbaycan İcması olaraq, UNESCO-nun nümayəndəsi Krista Pikkatın Azərbaycan ərazisindəki mədəni abidələr ilə bağlı Ermənistanın iddiaları əsasında ölkəmizə missiya göndərilməsi məsələsinə dair ifadə etdiyi mövqeyi qınayır və rədd edirik".**

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib.

Bəyanatda həmçinin qeyd olunub: "UNESCO rəsmisinin vaxtilə işğal edilmiş Azərbaycan ərazilərində və Ermənistanda Azərbaycan mədəni irsinin kütləvi şəkildə dağıdılması ilə bağlı UNESCO-nun müvafiq addımlar atması üçün dəfələrlə göndərilmiş müraciətlərin mahiyyəti üzrə cavabsız qalmasına aydınlıq gətirmək əvəzinə Ermənistanın əsassız iddialarına yer verməsi qəbuledilməzdir.

UNESCO-nun Azərbaycan xalqına qarşı dini və etnik əsasda nümayiş etdirdiyi bu ayrı-seçkilik bu təşkilatın Fransanın əlində anti-Azərbaycan siyasəti üçün bir alətə çevrildiyini göstərir.

Biz UNESCO-dan Azərbaycana və xalqımıza qarşı böhtan və ayrı-seçkiliyə son qoymağı, Azərbaycan mədəni irsinin Ermənistan tərəfindən dağıdılması ilə bağlı öz vəzifə borcunu, nəhayət, yerinə yetirməyi, o cümlədən bu ölkəyə xüsusi monitorinq missiyası göndərməyi tələb edirik".

# ABŞ mətbuatında Niderland parlamentinin Ermənistana dəstək xarakterli qətnamələri qərəzli hesab edilib

**"Niderlandın müstəmləkə keçmişi Asiya, Afrika və Amerikada çoxsaylı xalqların əsarət altına alınması və istismarı, eləcə də onlara qarşı törədilmiş çoxsaylı cinayətlər ilə yadda qalıb. Niderland qəddar taktikalarla öz imperiyasını genişləndirməklə paralel olaraq insan haqları məsələsinin spekulyasiyası ilə də maraqlarını təmin etməyə üstünlük verib. Niderlandın inkişafının böyük hissəsi əsarət altındakı ölkələrin milli sərvətlərinin talanması nəticəsində baş verib".**


Foreign Policy Association

Azerbaijan Responds to Recent Dutch Resolutions

AZƏRTAC xəbər verir ki, bu barədə tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı ABŞ-nin Nyu York şəhərində yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş "Azərbaycan Niderlandın son qətnamələrinə cavab verir" sərlövhəli məqaləsində yazıb. Müəllif qeyd olunan səbəbdən dünyanın müxtəlif xalqlarını asılı vəziyyətdə saxlamağa davam edən Niderlandın öz müstəmləkəçilik tarixinin ağır nəticələrini aradan qaldırmaq üçün səy göstərməsi barədə bəyanatını riyakarlıq kimi qiymətləndirib. O, bu yaxınlarda Niderland parlamenti tərəfindən qəbul olunmuş, Ermənistana və könüllü olaraq Qarabağdan köçmüş ermənilərə dəstək xarakterli iki qətnaməni qərəzli və ədalətsiz hesab edib.

Məqalədə Niderland parlamentinin bu təşəbbüsündən sonra xarici işlər naziri Kaspar Veldkampın çıxışında həmin qətnamələri dəstəkləməsi, üstəlik, Xankəndidəki keçmiş separatçı rejimlə əlaqəli şəxsləri və terrorçuları "hərbi əsir" adlandırması, onların azad olunmasına çağırış etməsi "zanbaqlar ölkəsi"nin ikili standartlar siyasətinin aşkar isbatı kimi səciyyələndirilib.

# "COP29 və Dayanıqlı Media Təcrübələri" mövzusunda ingilisdilli jurnalistlər üçün keçirilən növbəti təlimlər yekunlaşıb

**Medianın İnkişafı Agentliyi və ADA Universiteti İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə COP29-un işıqlandırılmasında fəal iştirak edəcək ingilisdilli jurnalistlər üçün silsilə təlimlər çərçivəsində "COP29 və Dayanıqlı Media Təcrübələri" mövzusunda ikigünlük təlimlər yekunlaşıb.**



AZƏRTAC xəbər verir ki, təlimin ikinci günündə "Economyfirst Limited London" şirkətinin direktoru, təcrübəli jurnalist Klaus-Peter Ralf Jurgens "Azərbaycanın Qlobal həmrəylik 2.0 tətbiqinə yanaşması" sessiyasında çıxış edərək, COP29 konfransından sonra iqlim dəyişikliyi ilə əlaqədar reportajlar və məlumatlar vasitəsilə ilboyu diqqət mərkəzində qalmaq üsulları barədə iştirakçılarla ətraflı diskussiya aparıb.

Media sahəsində iyirmi ildən çox beynəlxalq təcrübəyə malik, "CNN", "ABC News", "Channel News Asia", "Deutsche Welle TV" kimi məşhur media subyektlərində çalışmış, yüksəksəviyyəli beynəlxalq konfrans və sammitlərdə moderator olaraq iştirak etmiş jurnalist-teleaparıcı Ali Aslan isə müsahibəni maraqlı və aktual saxlamaq üçün verilə biləcək sualların real vaxta uyğun tənzimlənməsi və müsahibə zamanı gözlənilməz anları peşəkar şəkildə idarə etməyin yolları barədə jurnalistlərə geniş məlumat verib.

NTV kanalının məzmun üzrə meneceri Yeşim Sağlam kanalın yaşıl ekran təcrübəsi və audiovizual mediada dayanıqlı yanaşmaların tətbiqi, qlobal tədbirlərdə, eləcə də iqlim məsələləri ilə bağlı etibarlı və effektiv məlumatlandırmanın həyata keçirilməsi, canlı yayım zamanı "storitellinq" mövzusunda fikirlərini paylaşıb. Eyni zamanda Türkiyənin iqlim jurnalistikası sahəsində uzunmüddətli təcrübəyə malik NTV kanalının "Yaşıl Ekran" televiziya proqramının aparıcısı Buse Yıldırım Zoom platforması üzərindən media nümayəndələri ilə öz təcrübəsini bölüşüb.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

# *Anatoliy LİS:* "COP29-un Azərbaycanda keçirilməsi Prezident İlham Əliyevin xidmətlərinin nəticəsidir"

**"COP29-un Azərbaycanda keçirilməsi çox ciddi təşəbbüsdür və Prezident İlham Əliyevin xidmətlərinin nəticəsidir. Çünki bu gün dünyanı düşündürən ən vacib məsələlərdən biri iqlim dəyişikliyi məsələsidir. Ola bilər, bir çox insan hələ də bu problemin ciddiliyini başa düşmür. Lakin diqqət etmək lazımdır ki, indiki zamanda tufanlar, zəlzələlər yüz minlərlə insanın həyatına son qoyur. Bu da birbaşa iqlimlə, qlobal istiləşmə ilə bağlı olan məsələlərdir".**



Bu sözləri AZƏRTAC-a müsahibəsində Belarusun Gürcüstandakı səfiri Anatoliy Lis söyləyib.

Onun sözlərinə görə, iqlim dəyişikliyi, istiləşmə olduqca vacib məsələdir və bu məsələyə nəzarət etmək lazımdır. Biz bu məsələyə nə qədər ciddi yanaşsaq, problemi tez həll edə bilərik. Havaya daha çox karbon qazı buraxan ölkələr bu məsələdə digər ölkələrdən fəal olmalıdırlar.

Səfir deyib ki, Belarusda təbiəti qorumaq üçün çox böyük işlər görülür: "Bizdə atom elektrik stansiyası var. Biz də əvvəl müəyyən maddələrdən istifadə edirdik. Amma bizdə qoruqlar da var, təbiəti qoruyub saxlaya bilmişik. Avropada isə bu cür yerlər çox az qalıb. Ərazilərimizin 40 faizi meşələrlə örtülüb. Bu təcrübəni də digər ölkələrlə bölüşə bilərik".

"İndi alternativ enerji dövrüdür. Günəşdən, küləkdən, sudan enerji istehsalı zamanıdır. Düşünürəm ki, Azərbaycanın bu istiqamətdə təşəbbüsü təqdirəlayiqdir və alqışlanmalıdır", - deyə Anatoliy Lis vurğulayıb.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu





# Zəfərin təməl günü

## 31 il öncə Ulu Öndər Heydər Əliyevin çağırışı ilə Azərbaycan Ordusunun müzəffər yürüşünün bünövrəsi qoyuldu

**Ulu Öndər Heydər Əliyevin dövlət və xalq qarşısında ən böyük xidmətlərindən biri ordu quruculuğu ilə bağlıdır. Məhz Heydər Əliyevin yaratdığı nizami və vahid komandanlığa əsaslanan ordu Ermənistanın təcavüzkar hücumlarının qarşısını almış və cəbhənin müxtəlif istiqamətlərində torpaqlarımızı işğaldan azad etmişdi. Ordumuzun həmin şərəfli zəfər yürüşü Ulu Öndərin 1993-cü il noyabr ayının 2-də xalqa müraciətindən sonra başlamışdı.**

### Heydər ƏLİYEV: "İndi bizim ordumuz yaranmalı və qurulmalıdır"

Dövlətin və dövlətçiliyin sütunlarından biri ordudur. Lakin təəssüflə qeyd etməliyik ki, ötən əsrin 90-cı illərinin əvvəllərində hakimiyyətdə olan qüvvələr ordu quruculuğu işini düzgün apara bilmədilər. Özünümüdafiə batalyonları düşmənlə ayrı-ayrılıqda qəhrəmancasına döyüşsələr də, vahid komandanlığın həyata keçirilməməsi, dövlət dəstəyinin olmaması, ölkədəki siyasi çəkişmə öz sözünü deyirdi. Ən böyük problemlərdən biri yaradılmış hərbi hissələrin ayrı-ayrı şəxslərin nəzarətində olması və onların siyasi və konyunktur maraqlarına xidmət etməsi idi. Bütün bunlar nəticə etibarilə torpaqlarımızın müdafiəsinin düzgün təşkil edilməməsinə və işğalına gətirib çıxardı.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə gələndə faktiki olaraq ordu yox idi. Buna qədər hakimiyyətdə olmuş siyasi qüvvələrin yarıtmaz idarəçilikləri təməli düzgün qoyulmayan ordu quruculuğunu iflasa uğratmışdı. Dağınıq və pərakəndə şəkildə olan hərbi hissələr qarşılarında dayanan vəzifələri yerinə yetirmək iqtidarında deyildilər, torpaqlarımız müdafiəsiz qalmışdı. Ona görə Heydər Əliyevin ilk həyata keçirdiyi tədbirlərdən biri Ermənistanın artan hücumlarının qarşısını almaq oldu. Düşmənin ərazilərimizə yeni hücumları və təcavüzü ilə bağlı Ulu Öndər Heydər Əliyevin 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa müraciəti həm də Azərbaycanda ordu quruculuğunun başlanğıcı oldu. Tarixi müraciətində "İndi bizim ordumuz yaranmalı və qurulmalıdır" deyən Heydər Əliyev hamını bu yolda fədakar mübarizəyə, Azərbaycanın müdafiəsinə qalxmağa çağırdı. Məhz bu müraciət Azərbaycanda Prezident Heydər Əliyevin Ali Baş Komandanlığı ilə yeni ordu quruculuğunun əsasını qoydu.

Heydər Əliyev böyük uzaqgörənliklə ordu quruculuğuna mərkəzi komandanlığa tabe olmayan bütün hərbi hissələrin buraxılması ilə başladı. Qısa zamanda vahid komandanlığa əsaslanan yeni hərbi hissələrin formalaşdırılması, torpaqlarımızın müdafiə olunması üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi tezliklə cəbhə xəttindəki vəziyyətdə özünü göstərdi. 1993-cü ilin sonu, 1994-cü ilin əvvəllərində Füzuli istiqamətində, Murovda uğurlu əməliyyatlar həyata keçirildi, işğal olunmuş bəzi yaşayış məskənləri, strateji yüksəkliklər düşməndən azad edildi.

1994-cü ildə atəşkəs sazişinin imzalanmasından sonra Azərbaycanda ordu quruculuğu, ölkənin müdafiə qabiliyyətinin artırılması istiqamətində görülən işlər yeni fazaya daxil oldu. Hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması başa çatdırıldı. Döyüş qabiliyyətinin və peşəkarlığın artırılması, hərbi təhsilin müasir standartlar səviyyəsinə çatdırılması Azərbaycan Silahlı Qüvvələrini yeni keyfiyyət mərhələsinə yüksəltdi.

### Ordumuz xalqımızın qürur mənbəyidir

2003-cü ildən respublikamıza rəhbərlik etməyə başlayan Prezident İlham Əliyev Silahlı Qüvvələrimizin döyüş imkanlarının artırılmasını daim diqqət mərkəzində saxladı, bu istiqamətdə davamlı şəkildə hərbi islahatlar həyata keçirdi. Azərbaycan Silahlı Qüvvələrində baş verən keyfiyyət dəyişikliklərini, döyüş qabiliyyətinin ən modern səviyyəyə çatdırılmasını keçirilən paradlarda nümayiş etdirilən texnikalar da təsdiq edirdi. Bu illər ərzində Azərbaycanın artan maliyyə imkanları ordumuzun daha da güclənməsinə böyük təsir göstərdi, hər il dövlət büdcəsindən müdafiəyə ayrılan xərclər artırıldı.

Eyni zamanda torpaqlarımızın işğal altında olduğu dövrdə Azərbaycan dövləti sülh danışıqları nəticəsiz qalacağı təqdirdə ərazilərimizin güc yolu ilə azad edəcəyini hər zaman bəyan edirdi. 2016-cı ilin aprelində ermənilərin cəbhə xəttində törətdikləri təxribatlardan sonra baş verən döyüşlər göstərdi ki, Azərbaycan güc yolu ilə ərazilərini işğaldan azad etməyə qadirdir. Ordumuzun qələbəsi ilə başa çatan Aprel döyüşləri Azərbaycanda həyata keçirilən ordu quruculuğunun effektiv nəticəsini təsdiq etdi.

2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin antiterror tədbirləri isə bütün tərəfləri ilə yanaşı, hər biri ayrı-ayrılıqda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən modern ordu quruculuğunun ən möhtəşəm təntənəsinə çevrildi. Torpaqlarımızın azad olunması, ərazilərimizdəki erməni separatizminin məhv edilməsi ilə başa çatan bu hadisələr nəticəsində bütün dünya gördü ki, Azərbaycan güclü, peşəkar və ən müasir döyüş imkanlarını mənimsəmiş hərbi gücə, qüdrətli orduya sahibdir. Hansı ki bu ordu işğalçı Ermənistanın qoşunlarının 30 ilə yaxın müddətdə yaratdığı və möhkəmləndirdiyi bir neçə mərhələli mühəndis-istehkam qurğularını ilk həmlədəcə keçərək, qarşısında dayanan vəzifələri layiqincə yerinə yetirdi.

Bütün bu zəfərlərimizin təməli 1993-cü ildə qoyulub. 31 il öncə noyabrın 2-də Ulu Öndər Heydər Əliyevin çağırışı ilə Azərbaycan Ordusunun müzəffər yürüşünün təməl daşı atıldı. Ulu Öndər Heydər Əliyevin yaratdığı və gücləndirdiyi, Prezident İlham Əliyevin döyüş imkanlarını ən modern səviyyəyə yüksəltdiyi ordumuz xalqımızın qürur mənbəyidir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Dönüş anı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin indiyə qədər tarix qarşısında yerinə yetirdiyi ən böyük missiya torpaqlarımızın azadlığıdır. Hələ 2003-cü ildə ilk dəfə Prezident seçilən zaman Azərbaycan xalqına müraciət edərkən dövlət başçısı demişdi ki, nəyin bahasına olursa-olsun biz öz tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq.**

İstər sülh yolu ilə, istər müharibə yolu ilə: "...Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyondan artıq qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir... Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm!"

Xalq anlayırdı ki, tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olmayaraq, liderlik fenomeni milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malikdir.

Xalq yaxşı bilirdi ki, Lider mənəvi birliyi təmin edən, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən çox mühüm qüvvədir.

Cənab İlham Əliyevin Prezident kimi ilk and içməsindən 21 il ötür. Zəmanəsinin ən parlaq liderlərindən biri kimi Azərbaycan Prezidenti bu illər ərzində həm xalq qarşısında, həm də beynəlxalq münasibətlərdə verdiyi bütün vədləri yerinə yetirdi.

İlham Əliyevin Prezident seçilməsi ölkənin siyasi həyatında yeni inkişaf dönəminin başlanğıcı oldu. Azərbaycanın hərtərəfli inkişafı, xalqın firavan həyatı üçün ilk növbədə ölkənin pozulmuş ərazi bütövlüyü bərpa edilməli idi. Hesablanmış dəqiq siyasət, atılan hər bir addım Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması...

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin yüksək liderlik qabiliyyəti, bənzərsiz idarəetmə keyfiyyətləri, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Ötən il 19-20 sentyabr tarixlərdə isə ordumuz tərəfindən Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ərazilərimiz qanunsuz erməni hərbi birləşmələrindən tamamilə təmizləndi, separatçı rejim özünü buraxdığını elan etdi. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası müstəqillik tariximizin ən parlaq səhifəsi oldu.

İftixarla deyə bilərik ki, demokratik inkişaf yolunda həyata keçirilən sistemli tədbirlərin qanunauyğun nəticəsi kimi Azərbaycanda təkmil siyasi sistem formalaşıb. Qanunvericilik bazasının təkmilləşdirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində görülən tədbirlər, siyasi plüralizmin dəstəklənməsi, çoxpartiyalı sistemin inkişafı və digər istiqamətlər üzrə prioritet hesab olunan prinsiplər ölkədə davamlı demokratik cəmiyyətin inkişafından xəbər verir.

Azərbaycanda işlək və təhdidlərə qarşı immuniteti olan siyasi sistem bərqərar edilib. Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər nəticəsində ölkəmizin iqtisadi və hərbi müdafiə qüdrəti daha da güclənib.

21 il ərzində demək olar, bütün əməli çalışma sahələri üzrə, o cümlədən iqtisadiyyat (özəlliklə enerji sektoru), ordu quruculuğu, xarici siyasət, sosial və s. sahələrdə çox önəmli işlər görülüb, islahatlar həyata keçirilib. Şəhərlərimiz, qəsəbə və kəndlərimiz iri infrastruktur layihələrin uğurlu icrası meydanına çevrilib. Azərbaycan beynəlxalq səviyyəli iri layihələrin keçid və ya başlanğıc ölkəsi statusuna yiyələnib.

Azərbaycan beynəlxalq arenada çox nüfuzlu mövqe qazanıb. İlham Əliyevin həyata keçirdiyi uğurlu diplomatik və hərbi strategiya bölgəmizdə yeni gerçəkliklər yaradıb. Ölkəmiz öz qayğıları ilə məşğul olan dövlət statusundan nəinki bölgədə, hətta yaxın-uzaq coğrafiyalarda fikri, münasibətilə hesablaşılan statusa sahiblənib. Bu siyasət yalnız Azərbaycan üçün deyil, Cənubi Qafqaz üçün böyük tarixi mərhələnin uğurlu başlanğıcı deməkdir.

Ötən 21 ildə İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu siyasət, vaxtında görülən tədbirlər ölkəmizin fərqli beynəlxalq platformalarda nüfuz qazanmasına, ciddi nəticələr əldə etməsinə vəsilə oldu. Hazırda ölkəmiz çox önəmli beynəlxalq tədbirə - COP29-a hazırlaşır. 198 ölkənin yekdil dəstəyi ilə COP29-un regionda ilk dəfə Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzuna verilən qiymətdir.

31 oktyabr müasir müstəqil Azərbaycanın şanlı tarixinə ən önəmli günlərdən biri kimi yazılıb. Bu tarix zəfərlərə yol açan, respublikamıza misilsiz nailiyyətlər qazandıran, dinamik inkişafa aparan müdrik siyasətin başlanğıc günüdür.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## ZƏFƏR gündəliyi
## 2 noyabr 2020-ci il

### Düşmən bütün istiqamətlərdə ağır itki verərək geri çəkilib



Noyabrın 1-i gün ərzində və səhərə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.

Döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

Düşmən bölmələri cəbhənin bəzi istiqamətlərində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur olub. Düşmənin silah, sursat, ərzaq ehtiyatları tükənib.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını və 5 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

### Prezident xalqa müjdəli xəbər verib




Prezident İlham Əliyev özünün "X" hesabında paylaşım edərək xalqa müjdəli xəbər verib:

"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### Qazax, Tovuz və Daşkəsən atəşə məruz qalıb

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən bölmələrimizin mövqelərini minaatan və atıcı silahlardan atəşə tutub.

Noyabrın 2-nə keçən gecə müxtəlif vaxtlarda Ermənistanın Noyemberyan, Berd və Vardenis rayonlarından Azərbaycanın Qazax, Tovuz və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə tutulub.

### Zəngilan istiqamətində düşmənin "Su-25" döyüş təyyarəsi məhv edilib

Düşmən cəbhənin Zəngilan istiqamətində mövqelərimizə hücum etməyə cəhd göstərib. Bu istiqamətdə bir sıra əlverişli yüksəklikləri ələ keçirmək məqsədilə minaatanlardan və müxtəlif iriçaplı silahlardan istifadə etməklə bölmələrimizin mövqeləri atəşə tutulub.

Düşmənin hücuma keçmək niyyəti bölmələrimiz tərəfindən vaxtında aşkar edilib və həyata keçirilən uğurlu əməliyyat nəticəsində qarşı tərəf ciddi itkilərə məruz qalıb.

Döyüş nəticəsində canlı qüvvə sarıdan 30-dək itki verən düşmən Ermənistan ərazisinə çəkilməyə məcbur edilib.

Bölmələrimizin şəxsi heyətinin sayıqlığı nəticəsində mövqelərimizə havadan hücum edən düşmənin "Su-25" döyüş təyyarəsi məhv edilib.

### Tərtər və Goranboy intensiv atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər rayonunun Şıxarx qəsəbəsi, Qəzyan və Qapanlı kəndləri, Goranboy rayonunun Yenikənd kəndi intensiv artilleriya atəşinə tutulub.

### Qırmızı Bazar istiqamətində düşmənin qərargahı darmadağın edilib



Düşmənin daimi dislokasiya məntəqəsi, səngər və atəş mövqelərində yerləşən canlı qüvvəsi dəqiq zərbələrlə məhv edilib.

Eyni zamanda Qırmızı Bazar istiqamətində düşmənin qərargahı darmadağın edilib.

### Düşmənin KUB zenit-raket kompleksi dəqiq atəşlə sıradan çıxarılıb

Saat 18:00 radələrində Tərtər rayonunun Çardaqlı kəndində (keçmiş Ağdərə rayonunun Maqavuz kəndi) yerləşdirilmiş düşmənin KUB zenit-raket kompleksi dəqiq atəşlə sıradan çıxarılıb.

*R.BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 467

QƏRAR

31 oktyabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 iyul tarixli 330 nömrəli, 17 iyul tarixli 342 nömrəli və 3 sentyabr tarixli 382 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3 91732 0000 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

1.2. 3 919101200 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

1.1. 3917 32 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3917 32 000 | – – digərləri, digər materiallarla armaturlaşdırılmamış və ya kombinasiya edilməmiş, fitinqlərsiz: | | |
| 3917 32 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 3917 32 000 9 | – – – digərləri | – | 15 |

1.2. 3919 10 120 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3919 10 120 | – – – polivinilxloriddən və ya polietilendən: | | |
| 3919 10 120 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 3919 10 120 9 | – – – – digərləri | – | 15 |

1.3. 3919 10 150 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3919 10 150 | – – – polipropilendən: | | |
| 3919 10 150 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixədək 0%) |
| 3919 10 150 9 | – – – – digərləri | – | 5 |

1.4. 3919 10 190 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3919 10 190 | – – – digərləri: | | |
| 3919 10 190 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixədək 0%) |
| 3919 10 190 9 | – – – – digərləri | – | 5 |

1.5. 3919 10 800 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3919 10 800 | – – digərləri: | | |
| 3919 10 800 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixədək 0%) |
| 3919 10 800 9 | – – – digərləri | – | 5 |

1.6. 3926 90 970 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 3926 90 970 | – – – digərləri: | | |
| 3926 90 970 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə bayraqlar | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 3926 90 970 2 | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə bayraqlar | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 3926 90 970 9 | – – – – digərləri | – | 15 |

1.7. 4010 31 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4010 31 000 | – – xarici çevrəsinin uzunluğu 60 sm-dən çox olan, lakin 180 sm-dən çox olmayan, en kəsiyi trapesşəkilli olan tilli sonsuz ötürücü qayışlar (klinli qayışlar): | | |
| 4010 31 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 4010 31 000 9 | – – – digərləri | – | 15 |

1.8. 4011 50 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4011 50 000 | – velosipedlər üçün: | | |
| 4011 50 000 1 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 4011 50 000 9 | – – digərləri | əd | 15 |

1.9. 4012 90 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4012 90 900 | – – çənbər lentləri: | | |
| 4012 90 900 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 1 əd. 10 ABŞ dolları (31.12.2028-ci il tarixədək 0%) |
| 4012 90 900 9 | – – – digərləri | əd | 1 əd. 10 ABŞ dolları |

1.10. 4013 20 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4013 20 000 | – velosipedlər üçün: | | |
| 4013 20 000 1 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 4013 20 000 9 | – – digərləri | əd | 15 |

1.11. 4016 99 970 1alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin

| | | | |
|---|---|---|---|
| 4016 99 970 2 | – – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | - | 15 (31.12.2028-ci il tarixədək 0%) |

1.12. 4202 92 980 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4202 92 980 | – – – – digərləri: | | |
| 4202 92 9801 | – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 4202 92 9809 | – – – – – digərləri | əd | 15 |

1.13. 7009 10 000 1alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin

| | | | |
|---|---|---|---|
| 7009 10 000 2 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |

1.14. 7315 11 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7315 11 100 | – – – velosipedlər və motosikllər üçün istifadə olunan: | | |
| 7315 11 100 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7315 11 100 9 | – – – – digərləri | – | 15 |

1.15. 7315 19 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7315 19 000 | – – hissələri: | | |
| 7315 19 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7315 19 000 9 | – – – digərləri | – | 15 |

1.16. 7318 15 590 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 15 590 | – – – – – – – digərləri: | | |
| 7318 15 590 1 | – – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 15 590 9 | – – – – – – – – digərləri | – | 15 |

1.17. 7318 15 690 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 15 690 | – – – – – – – digərləri: | | |
| 7318 15 690 1 | – – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 15 690 9 | – – – – – – – – digərləri | – | 15 |

1.18. 7318 15 810 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 15 810 | – – – – – – – – 800 MPa-dan az olan: | | |
| 7318 15 810 1 | – – – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 15 810 9 | – – – – – – – – – digərləri | – | 15 |

1.19. 7318 15 890 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 15 890 | – – – – – – – – 800 MPa və ya daha çox olan: | | |
| 7318 15 890 1 | – – – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 15 890 9 | – – – – – – – – – digərləri | – | 15 |

1.20. 7318 15 900 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 15 900 | – – – – – – digərləri: | | |
| 7318 15 900 1 | – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 15 900 9 | – – – – – – – digərləri | – | 15 |

1.21. 7318 16 200 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 16 200 | – – – dəliyinin diametri 6 mm-dən çox olmayan, bütöv en kəsikli çubuqlardan, profillərdən və ya məftillərdən yonulmuş: | | |
| 7318 16 200 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 16 200 9 | – – – – digərləri | – | 15 |

1.22. 7318 16 500 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 16 500 | – – – – – özüqapanan qaykalar: | | |
| 7318 16 500 1 | – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 16 500 9 | – – – – – – digərləri | – | 15 |

1.23. 7318 16 910 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 16 910 | – – – – – – 12 mm-dən çox olmayan: | | |
| 7318 16 910 1 | – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 16 910 9 | – – – – – – – digərləri | – | 15 |

1.24. 7318 16 990 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 16 990 | – – – – – – 12 mm-dən çox olan: | | |
| 7318 16 990 1 | – – – – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 16 990 9 | – – – – – – – digərləri | – | 15 |

1.25. 7318 19 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 19 000 | – – digərləri: | | |
| 7318 19 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 19 000 9 | – – – digərləri | – | 15 |

1.26. 7318 22 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 22 000 | – – digər şaybalar: | | |
| 7318 22 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 22 000 9 | – – – digərləri | – | 15 |

1.27. 7318 23 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 23 000 | – – pərçimlər: | | |
| 7318 23 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 23 000 9 | – – – digərləri | – | 5 |

1.28. 7318 24 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 24 000 | – – şpon civiləri və şplintlər: | | |
| 7318 24 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 24 000 9 | – – – digərləri | – | 15 |

1.29. 7318 29 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7318 29 000 | – – digərləri: | | |
| 7318 29 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 7318 29 000 9 | – – – digərləri | – | 15 |

1.30. 7604 21 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7604 21 000 | – – içi boş profillər: | | |
| 7604 21 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixədək 0%) |
| 7604 21 000 9 | – – – digərləri | – | 5 |

1.31. 7604 29 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 7604 29 900 | – – – profillər: | | |
| 7604 29 900 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 5 (31.12.2028-ci il tarixədək 0%) |
| 7604 29 900 9 | – – – – digərləri | – | 5 |

1.32. 8301 40 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8301 40 900 | – – digər qıfıllar: | | |
| 8301 40 900 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8301 40 900 9 | – – – digərləri | – | 15 |

1.33. 8306 10 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8306 10 000 | – zənglər, qonqlar və analoji məmulatlar: | | |
| 8306 10 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8306 10 000 9 | – – digərləri | – | 15 |

1.34. 8307 10 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8307 10 000 2 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |

1.35. 8413 20 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8413 20 000 2 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |

1.36. 8482 10 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8482 10 100 | – – ən böyük xarici diametri 30 mm-dən çox olmayan: | | |
| 8482 10 100 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 5 (31.12.2028-ci il tarixədək 0%) |
| 8482 10 100 9 | – – – digərləri | əd | 5 |

1.37. 8482 10 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8482 10 900 | – – digərləri: | | |
| 8482 10 900 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 5 (31.12.2028-ci il tarixədək 0%) |
| 8482 10 900 9 | – – – digərləri | əd | 5 |

1.38. 8501 32 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8501 32 000 2 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 5 (31.12.2028-ci il tarixədək 0%) |

1.39. 8501 33 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8501 33 000 2 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 5 (31.12.2028-ci il tarixədək 0%) |

1.40. 8504 40 550 1 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8504 40 550 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 5 (31.12.2028-ci il tarixədək 0%) |

1.41. 8507 60 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8507 60 000 2 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |

1.42. 8507 80 000 1 alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8507 80 000 2 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |

1.43. 8512 10 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8512 10 000 | – velosipedlərdə istifadə olunan işıqlandırıcı və ya vizual siqnalizasiya cihazları: | | |
| 8512 10 000 1 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8512 10 000 9 | – – digərləri | əd | 15 |

1.44. 8512 90 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8512 90 900 | – – digərləri | | |
| 8512 90 900 1 | – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8512 90 900 9 | – – – digərləri | əd | 15 |

1.45. 8714 91 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 91 100 | – – – çərçivələr: | | |
| 8714 91 100 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 91 100 2 | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 91 100 9 | – – – – digərləri | əd | 15 |

1.46. 8714 91 300 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 91 300 | – – – qabaq çəngəllər: | | |
| 8714 91 300 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 91 300 2 | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 91 300 9 | – – – – digərləri | əd | 15 |

1.47. 8714 91 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 91 900 | – – – hissələr: | | |
| 8714 91 900 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 91 900 2 | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 91 900 9 | – – – – digərləri | – | 15 |

1.48. 8714 92 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 92 100 | – – – çənbərlər: | | |
| 8714 92 100 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 92 100 9 | – – – – digərləri | əd | 15 |

1.49. 8714 92 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 92 900 | – – – millər: | | |
| 8714 92 900 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 92 900 9 | – – – – digərləri | – | 15 |

1.50. 8714 93 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 93 000 | – – sərbəst hərəkətli əyləc çarx toplarından və vtulkalı əyləclərdən başqa, çarx topları, ötmə muftalarının zəncirli ulduzcuqları: | | |
| 8714 93 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 93 000 9 | – – – digərləri | – | 15 |

1.51. 8714 94 200 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 94 200 | – – – əyləclər: | | |
| 8714 94 200 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 94 200 2 | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 94 200 9 | – – – – digərləri | – | 15 |

1.52. 8714 94 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 94 900 | – – – hissələri: | | |
| 8714 94 900 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 94 900 9 | – – – – digərləri | – | 15 |

1.53. 8714 95 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 95 000 | – – yəhərlər: | | |
| 8714 95 000 1 | – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 95 000 9 | – – – digərləri | əd | 15 |

1.54. 8714 96 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 96 100 | – – – pedallar: | | |
| 8714 96 100 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | cüt | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 96 100 9 | – – – – digərləri | cüt | 15 |

1.55. 8714 96 300 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 96 300 | – – – krivoşip mexanizmləri: | | |
| 8714 96 300 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 96 300 9 | – – – – digərləri | – | 15 |

1.56. 8714 96 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 96 900 | – – – hissələri: | | |
| 8714 96 900 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 96 900 9 | – – – – digərləri | – | 15 |

1.57. 8714 99 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 99 100 | – – – sükanlar, tutacaqlar: | | |
| 8714 99 100 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 99 100 9 | – – – – digərləri | əd | 15 |

1.58. 8714 99 300 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 99 300 | – – – yük yerləri: | | |
| 8714 99 300 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 99 300 9 | – – – – digərləri | əd | 15 |

1.59. 8714 99 500 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 99 500 | – – – sürət dəyişdirici qurğular: | | |
| 8714 99 500 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 99 500 9 | – – – – digərləri | – | 15 |

1.60. 8714 99 900 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8714 99 900 | – – – digərləri; hissələr: | | |
| 8714 99 900 1 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 99 900 2 | – – – – skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 8714 99 900 9 | – – – – digərləri | – | 15 |

1.61. 9029 20 310 1alt yarımmövqeyinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin

| | | | |
|---|---|---|---|
| 9029 20 310 2 | – – – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |

1.62. 9029 20 380 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 9029 20 380 | – – – digərləri: | | |
| 9029 20 380 1 | – – – –skuterlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 9029 20 380 9 | – – – – digərləri | əd | 15 |

1.63. 9503 00 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 9503 00 100 | – üçtəkərli velosipedlər, samokatlar, pedallı avtomobillər və analoji təkərli oyuncaqlar; kuklalar üçün arabalar: | | |
| 9503 00 100 1 | – – velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | – | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| 9503 00 100 9 | – – digərləri | – | 15 |

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 469

QƏRAR

31 oktyabr 2024-cü il

## "Elektroenergetika haqqında"Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121 (Cild I); 2024, № 1, maddə 116, № 4, maddə 471) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nın 9.6-cı, 10.21-ci, 11.16-cı və 12.17-ci bəndlərində "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na və "Gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin mühafizəsi qaydaları"na" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 261 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair Tələblər"inə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 468 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1956 (Cild I) ilə təsdiq edilmiş "Reklam qurğularının yol kənarında yerləşdirilməsi Standartları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.11-ci yarımbənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları" və "Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 261 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair Tələblər"i" sözləri ilə əvəz edilsin;

2.2. 3.4-cü bənddən "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın və"Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları"nın," sözləri çıxarılsın və həmin bəndə "mühafizə Qaydaları"nın" sözlərindən sonra "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 16 may tarixli 261 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair Tələblər"inin" sözləri əlavə edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*




# DSX-nin Sərhəd Nəzarəti Komandanlığında mediatur keçirilib

**Noyabrın 1-də media nümayəndələrinin iştirakı ilə Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Nəzarəti Komandanlığında mediatur keçirilib.**



AZƏRTAC xəbər verir ki, mediatur DSX-nin Sərhəd Nəzarəti Komandanlığının fəaliyyətinin müxtəlif aspektlərini jurnalistlərə əyani şəkildə göstərmək məqsədilə təşkil olunub.

DSX Sərhəd Nəzarətinin rəisi Elşən Verdiyev komandanlığın yaranma tarixi və xidməti fəaliyyəti haqqında məlumat verib: "Sərhəd Nəzarəti Komandanlığının əsas vəzifələri dövlət sərhədindən buraxılış məntəqələri ilə hərəkət edən şəxslərin və nəqliyyat vasitələrinin qanunvericiliyin tələblərinə uyğun olaraq dövlət sərhədindən buraxılışı, qeyri-qanuni miqrasiyanın qarşısının alınması, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekusorlarının, zəhərli, radioaktiv, partlayıcı maddələrin, odlu silah və döyüş sursatının, digər kütləvi qırğın silahlarının dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısının alınmasından ibarətdir".

Daha sonra jurnalistlərə komandanlığın nailiyyətlərini əks etdirən filmin nümayişi təqdim edilib.

Mediatur çərçivəsində media nümayəndələri və hərbi ekspertlər Sərhəd Nəzarəti Komandanlığının sənədlərdə saxtakarlığın aşkar edilməsi üçün səyyar təlim qurğusu, səyyar radiasiya aşkaretmə avadanlığı, Sərhəd Nəzarətinin videomüşahidə və qaynar xətt mərkəzi, Sərhəd Nəzarətinin nəzdində kurslara cəlb olunmuş heyət üçün tədris sinifləri, xidməti və istirahət otaqları, konfrans və idman zalları, yeməkxana, Sərhəd Nəzarətinin Heydər Əliyev Beynəlxalq Aeroportundakı əməkdaşlarının iş fəaliyyəti ilə tanış olublar.

Daha sonra komandanlığın kapitanı Hüseyn Qənbərli dövlət sərhədində narkotik vasitələrin və partlayıcı maddələrin aşkar olunması üçün xüsusi hazırlanmış xidməti itlər barədə məlumat verib: "Narkotik vasitələrin, partlayıcı maddələrin və izlərin axtarışı üçün daha çox xüsusi təlim keçmiş alman çoban, Belçika malinois itlərindən istifadə olunur. Bu cinslər qoxuların hiss olunması və axtarış üzrə daha yüksək iş qabiliyyətinə malikdirlər. Onlar öz iş fəaliyyətlərini yekunlaşdırdıqdan sonra mühafizə sahəsinə yönləndirilirlər".

Mayor Nicat Cahidzadə isə Sərhəd Nəzarətinin Komandanlığının COP29 beynəlxalq konfransına tam hazır olduğunu deyib: "Komandanlıq COP29-la əlaqədar ölkəmizə gələn xarici qonaqların pasport nəzarətindən sürətli keçidinin təmin edilməsi üçün xüsusi texniki təchizat və nəzarət avadanlıqları ilə təmin olunub, zəruri tədbirlər görülüb və bütün tapşırıqlar tam olaraq icra edilib.

COP29 vizası ilə gələn xarici vətəndaşlar üçün yoxlanış 45 saniyə, Azərbaycan vətəndaşları üçün isə 30 saniyə nəzərdə tutulub. Artıq işçi qüvvəsinin sayı artırılıb. Onlar gücləndirilmiş iş rejimində çalışacaqlar. Eyni zamanda COP29 tədbiri zamanı hər hansı fövqəladə hal yarandığı halda sistemin və şəbəkənin dayanıqlı təmin olunması üçün müvafiq tədbirlər görülüb".

# Dünəndən COP29-la bağlı Çağrı Mərkəzi fəaliyyətə başlayıb

## Noyabrın sonuna kimi *1029 nömrəsi vasitəsilə müraciətlər cavablandırılacaq

**"COP29 tədbirinə hazırlıq məqsədilə dünəndən etibarən Çağrı Mərkəzi fəaliyyətə başlayıb. Məqsəd ziyarətçi təcrübəsinin yaxşılaşdırılması və qonaqların məlumatlılıq səviyyəsinin yüksəldilməsidir. Həm şəhərin qonaqları, həm tədbir iştirakçıları, həm də yerli sakinlər *1029 qısa nömrəsinə yığaraq öz suallarına cavab tapa bilərlər".**




AZƏRTAC xəbər verir ki, bunu COP29 Azərbaycan Əməliyyat Şirkətində ziyarətçi təcrübəsi üzrə sektor müdiri İlkin Cavadov jurnalistlərə müsahibəsində deyib.

Çağrı Mərkəzinin COP tədbirləri tarixində ilk dəfədir yaradıldığını bildirən İ.Cavadovun sözlərinə görə, ziyarətçilər və tədbir iştirakçıları ənənəvi zəng üsulu olan Çağrı Mərkəzindən əlavə, rəsmi **cop29.az** veb-saytı üzərindən xüsusi çat, eyni zamanda "Vatsap" və "Teleqram" kanallarından faydalana bilərlər.

Bildirilib ki, Çağrı Mərkəzi və çatlar vasitəsilə Azərbaycan və ingilis dillərində xidmət göstəriləcək. "Mərkəzin noyabrın 1-dən ayın sonuna kimi fəaliyyət göstərməsi nəzərdə tutulub. Noyabrın 4-dən etibarən pre-sessiyaların başlaması səbəbindən iş rejimi 24 saat olacaq. Bu, noyabrın 23-nə kimi davam edəcək. Noyabrın 1-dən 4-nə kimi və noyabrın 23-dən sonra ayın sonuna kimi qısaldılmış rejimdə fəaliyyət göstərəcək. Çünki bəzi qonaqlar ölkəmizdə tədbirdən sonra da bir neçə gün qalacaqlar. Ona görə də noyabrın sonuna kimi onlara dəstəyimizi davam etdirmək istəyirik. Hazırda Çağrı Mərkəzi qısaldılmış rejimdə - səhər 8:00-dan axşam 20:00-a kimi fəaliyyət göstərir. Çağrı Mərkəzində təkcə bir növbə üzrə 8 nəfər müraciətləri cavablandıracaq. Tədbirin başlamasından sonra monitorinq aparılaraq zənglərin, müraciətlərin çoxluğuna əsasən işçi sayı tənzimlənəcək", - deyə İ.Cavadov qeyd edib.

# ABŞ COP29-da iştirak edəcək nümayəndə heyətinin tərkibini açıqlayıb

**AZƏRTAC-ın ABŞ Dövlət Departamentinə istinadən verdiyi məlumata görə, 11-22 noyabr tarixlərdə ABŞ-nin 20-dən çox departamenti, agentliyi və təşkilatından olan yüksəkvəzifəli rəsmilər iqlim böhranı ilə mübarizədə ABŞ-nin liderlik mövqeyini vurğulamaq və güclü nəticələrinə nail olunması istiqamətində işləmək üçün Bakıya səfər edəcəklər.**




ABŞ nümayəndə heyətinə ABŞ Prezidentinin beynəlxalq iqlim siyasəti üzrə baş müşaviri Con Podesta başçılıq edəcək. Nümayəndə heyətinə, həmçinin kənd təsərrüfatı katibi Tomas Vilsak, enerji katibi Cenifer Qranholm, Prezidentin köməkçisi və Ağ Evin milli iqlim müşaviri Ali Zaidi, Ağ Evin Ətraf Mühitin Keyfiyyəti Şurasının sədri Brenda Mallori, enerji katibinin müavini David Turk, daxili işlər üzrə katibin fəaliyyətdə olan müavini Laura Daniel Deyvis, Ətraf Mühitin Müdafiəsi Agentliyinin administratorunun müavini Ceyn Nişida, ticarət katibinin okeanlar və atmosfer üzrə müavini və Milli Okean və Atmosfer Administrasiyasının administratoru Rik Spinrad, Dövlət katibinin silahlara nəzarət və beynəlxalq təhlükəsizlik üzrə müavini Bonni Yenkins daxildir. Həmçinin ABŞ nümayəndə heyəti tərkibində iqlim dəyişikliyinin silahlı münaqişə, maliyyə, ərzaq təhlükəsizliyi, gender, qlobal sağlamlıq, ticarət və investisiya, gənclərlə bağlı məsələlər və digərlərinə təsirləri istiqamətində fəaliyyət göstərən geniş sayda digər ABŞ rəsmiləri də Azərbaycana səfər edəcəklər.

# Uzaq yaşıl ada

**Minlərlə müxtəlif növ ağac və gül kolunun əkildiyi, ərazisində qazon örtüyünün salındığı bir məkan haqqında eşitsək, yəqin ki, bunun hansısa şəhərimizdə, yaxud qəsəbəmizdə olduğunu düşünərik. Lakin göz, könül oxşayan bu yaşıllıq dənizin ortasındadır. Hər yandan Xəzərin suları ilə əhatə olunmuş qumsal bir torpaq parçasındadır. Bura Çilov adasıdır...**



Əvvəla xatırladaq ki, Çilov Xəzər dənizində Azərbaycana məxsus adadır, ərazisi 11,5 kvadratkilometr (uzunluğu 4,5, eni 3,3 kilometr) təşkil edir. Ada Abşeron yarımadasından 25 kilometr, Bakıdan isə 100 kilometr şərqdə yerləşir. Pirallahı və Çilov adaları arasında 60-70 kilometrlik dəniz yolu (boğaz) var. Çilovun şimal-qərbində Urunos yarımadası, cənub-qərbində Cənub dili burnu yerləşir.

Bu adada insanların məskunlaşması təxminən XIX əsrin sonu - XX əsrin əvvəlinə təsadüf edir. 1949-cu ildə isə ona şəhər tipli qəsəbə statusu verilib. Hazırda Çilov Bakı şəhərinin Pirallahı rayonunun tərkibinə daxildir. Bu ilin oktyabr ayına olan məlumata görə, adada 750 sakin yaşayır. Müxtəlif vaxtlarda, əsasən neft hasilatının yüksək olduğu zaman burada əhalinin sayı 2400 nəfər təşkil edib. Yeri gəlmişkən: Çilovdakı karbohidrogen mənbələri 28 May Neft və Qazçıxarma İdarəsi tərəfindən istismar olunur.

Çilova içməli su həmişə gəmilərlə sahildən gətirilib. Lakin bu qeyri-adi məkanda yaşayan insanların, belə demək mümkünsə, özlərinin əllərinin altında su mənbəyinin olması vacib məsələ idi. Bu problemin də uğurlu həlli tapıldı. Çilovda ƏKS-OSMOS sistemi həyata keçirildi. Ada sakinlərinin qısa şəkildə su qurğusu, yaxud OSMOS adlandırdığı bu sistem ayrıca bir binada yerləşdirilib. İlk baxışdan adi istehsalat sexinə bənzəyir.

Məhsuldarlığı sutkada 300 kubmetrlik birinci ƏKS-OSMOS 2010-cu ildə istifadəyə verilib. 2011-ci ildə istifadəyə verilən ikinci qurğunun məhsuldarlığı sutkada 500 kubmetr təşkil edir. Dəniz suyu nasoslar vasitəsilə anbara vurulur, burada müəyyən proseslərdən keçərək təmizlənir və keyfiyyəti vaxtaşırı yoxlanılaraq nəzərdə saxlanılır.

İndi adada torpaq da, ağaclar da, ev heyvanları və quşları da sudan doyur. Məişət obyektlərinə gen-bol su verilir. Suyun artması isə həyatın daha da canlanması deməkdir. Sakinlər bunu əyani görürlər.

Çilovlular ağac əkməklə kifayətlənməyib həm də onlara lazımi qaydada qulluq edirlər. Bu yerlərin təbiətinə yaxından bələd olan yaşlı sakinlər, eləcə də mütəxəssislər deyirlər ki, adada ağac yetişdirmək o qədər də asan məsələ deyil. Çünki torpaq qumsaldır, hər addımda balıq qulaqcıqlarına rast gəlirsən. Bura bir növ yarımsəhra zonasıdır. Ona görə də, əsasən, 14 il əvvəl - "Ekologiya ili" olan 2010-cu ildə başlanan ağacəkmə kampaniyası hələ də aktuallığını itirməyib. "Yaşıl dünya naminə həmrəylik ili"ndə, ölkəmizin COP29-a evsahibliyi etməyə hazırlaşdığı vaxtda yaşıllığı artırmaq daha böyük əhəmiyyət kəsb edib.

Onu da qeyd edək ki, hər il Çilov adasından yığılan zeytun Zirə Zeytun Zavoduna təhvil verilir. Əvvəllər meyvə ağacları çilovluların yalnız həyətində, adətən, sahəsi çox geniş olmayan bağ-bağçasında bitərdi. Lakin ada sakinlərinin yolu Azərbaycanın müxtəlif bölgələrinə düşdükcə oradan şitil gətirib ərik, gilas, heyva, nar ağacları yetişdirərək bağlarını da zənginləşdirdilər.

Əvvəllər yol kənarları, çöllər bomboz idi. İndi isə buralar Xəzərin qoynunda çiçək açmış bir çəməni xatırladır. Burada zeytun, iydə, akasiya, əncir, gilənar, tut ağacları boy atıb. Meynələr bar verir, qızılgüllər ətir saçır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# *"Haber7" telekanalı:* "COP29 iqlim böhranının həlli üçün son şansdır"

**Türkiyənin "Haber7" telekanalı Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının qarşıdan gələn 29-cu sessiyasının - COP29 məqsədləri fonunda bərpaolunan enerji mənbələrindən (BEM) daha fəal istifadənin əhəmiyyəti haqqında reportaj hazırlayıb. Xəbərdə COP29 iqlim böhranını həll etmək üçün son şans kimi qiymətləndirilir.**




AZƏRTAC xəbər verir ki, reportajda ölkələrin enerji təhlükəsizliyini və davamlı inkişafını təmin etmək üçün qazıntı yanacaq növlərindən imtina edilməsi zəruriliyinə diqqət yönəldən ekspert Emrah Özgülün qiymətləndirməsi təqdim olunur.

Türkiyəli ekspertin fikrincə, Türkiyənin ekoloji məqsədlərinə nail olmaq, o cümlədən 2053-cü ilə qədər atmosferə zərərli emissiyaları sıfırlamaq üçün enerji sektoruna xüsusi diqqət yetirilməsi vacibdir.

Özgül BMT Baş Assambleyasının bu il sentyabrın sonunda dünyanın 143 dövləti tərəfindən təsdiq edilmiş "Gələcək naminə Pakt" sənədini xatırladıb. "Bu sənədə əsasən, iqlim dəyişikliyi, biomüxtəlifliyin itirilməsi, səhralaşma, qum-toz fırtınaları, ətraf mühitin çirklənməsi və digər ekoloji problemlər dövlətlərin təbii mühiti və inkişaf perspektivləri üçün ciddi risklər yaradır", - deyən ekspert vurğulayıb ki, növbəti 10 il qarşıya qoyulan məqsədlərə nail olmaq üçün çox vacibdir.

Dayanıqlı inkişaf, iqtisadi inkişaf, sosial sabitlik və milli təhlükəsizlik, bütün dünyada ölkələrin rifahının təşviq edilməsi sahəsində məqsədlərə nail olmaq üçün böyük əhəmiyyət kəsb edən enerjiyə çıxışın və enerji təhlükəsizliyinin təmin edilməsindən bəhs edən "Gələcək naminə Pakt"ın 25-ci maddəsinə xüsusi diqqət yetirilir.

Bununla əlaqədar olaraq, ekspert 2030-cu ilə qədər bütün dünyada bərpaolunan enerji potensialının üç dəfə artırılması və enerji səmərəliliyinin artırılmasının qlobal orta illik sürətinin iki dəfə artırılması çağırışını xatırladıb.

Reportajda COP28 konfransında qazıntı yanacaq istehlakını azaltmağa hazır olduqlarını bəyan edən ölkələrin vədlərinə əməl etmədikləri, təmiz enerji mənbələrindən istifadə həcminin isə arzuolunandan çox aşağı olduğu göstərilir.

Qeyd olunur ki, Azərbaycanda keçiriləcək konfransın prioritet istiqamətlərindən biri iqlim maliyyələşməsi və inkişaf etməkdə olan ölkələrdə iqlim layihələri üzrə konsensus məsələsi olacaq.

Emrah Özgülün fikrincə, Azərbaycanda COP29 iştirakçıları tərəfindən müzakirə olunacaq "Yeni Kollektiv Kəmiyyət Məqsədi" (NCQG) sənədi müstəsna əhəmiyyət kəsb edir.

"COP29-un gündəminin mühüm maddəsi həm də inkişaf etməkdə olan ölkələrə təbii fəlakətlərdən dəyən zərərin ödənilməsinə kömək məqsədilə yaradılmış İtki və Zərər Fondunun effektivliyinin artırılmasıdır", - deyə türkiyəli ekspert davam edib.

O, Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının enerji təchizatının təhlükəsizliyini strateji əhəmiyyətli məsələ kimi qəbul edən Türkiyə üçün də mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Ekspert uğurlu nümunə kimi Türkiyə liderinin xanımı Əminə Ərdoğanın himayəsi ilə həyata keçirilən və hazırda ekoloji hərəkata çevrilən, artıq 105 ölkəni əhatə edən "Sıfır Tullantı" təşəbbüsünü göstərib.

## COP29 zamanı bölgələrdən Bakıya gələn avtomobillərə məhdudiyyət tətbiq olunmayacaq

**"COP29-un keçiriləcəyi günlərdə bölgələrdən Bakıya gələn rayon qeydiyyatlı avtomobillər üçün heç bir məhdudiyyət tətbiq olunmayacaq".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Daxili İşlər Nazirliyinin (DİN) Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin (NİİM) rəisi Namidan Piriyev "COP29 nəqliyyat planının təqdimatına dair" xüsusi brifinqdə bildirib.

NİİM-in rəisi qeyd edib ki, rayonlardan gələrkən postlarda hər hansı yoxlama olmayacaq.

"Tədbir günlərində gedişata uyğun olaraq bəzi yollarda postlar qurula və məhdudiyyətlər tətbiq oluna bilər. Bu zaman alternativ yollar təklif olunacaq. Məhdudiyyətlər tətbiq olunan həmin postlarda da fasilələrlə nəqliyyat vasitələri buraxıla bilər", - deyə Namidan Piriyev bildirib.

# *Türkiyə telekanalı:* "Azərbaycanın COP29 vaxtı barışıq təşəbbüsü dünya ictimaiyyəti tərəfindən dəstəklənir"

**BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı Azərbaycanın atəşkəs çağırışı bütün dünyada getdikcə daha çox dəstək alır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin "Haber7" telekanalının Bakıda keçiriləcək qlobal tədbirlə bağlı materialında deyilir.

Telekanal BMT-nin Azərbaycanda keçiriləcək mötəbər tədbirinə son hazırlıq işlərinə diqqət çəkir və konfransda "Yeni Kollektiv Kəmiyyət Hədəfi"nin (NCQG) qəbul ediləcəyinə ümid edir.

Qeyd olunur ki, COP29 iqlim dəyişikliyi ilə mübarizədə qlobal həmrəyliyi gücləndirəcək, ölkələrin davamlı inkişafına dəstək verəcək və "yaşıl iqtisadiyyat"a keçidi sürətləndirəcək mühüm platformadır.

Materialda Azərbaycanın "İslahatçı gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlının COP29-un bütün bəşəriyyət üçün əhəmiyyətini vurğulayan sözləri sitat gətirilir: "Ümumən, Azərbaycanın ekoloji problemlərin həllinə verdiyi töhfə etiraf edilir və rəsmi Bakının ekoloji sahədəki təşəbbüsləri qlobal səviyyədə getdikcə daha çox dəstəklənir".

İctimai Birliyin rəhbəri iqlim dəyişikliyi ilə mübarizə naminə bütün ölkələrin birlik və həmrəyliyinin təmin edilməsinin zəruriliyi ilə bağlı Azərbaycan hakimiyyətinin mövqeyinə diqqət çəkib. O, Azərbaycanın bəşəriyyətin problemlərinin həllinə çağırışının əhatə dairəsinin təkcə ekoloji sahə ilə məhdudlaşmadığını, dünyanın üzləşdiyi bütün çağırışlara aid olduğunu diqqətə çatdırıb. "Təsadüfi deyil ki, dünyanın 197 ölkəsindən nümayəndələr




Bakıda keçiriləcək tədbirə gələcəklər", - deyə F.Şahbazlı bildirib.

O, həmçinin COP29-u "sülh prosesinin nəticəsi" adlandıran Azərbaycan Prezidenti İlham Əliyevin sözlərini xatırladıb, eyni zamanda Bakının iqlim müzakirələri günlərində barışıq çağırışını dəstəkləyən Qoşulmama Hərəkatına üzv ölkələrin mövqeyinə diqqət çəkib.

# Antiazərbaycançı şəbəkənin məkrli planı iflasa məhkumdur

## Antiazərbaycançı fəaliyyət ölkəmizin haqlı mövqeyinə təsir göstərə bilməz

**Azərbaycanın qazandığı zəfərlərlə bölgədə reallığı dəyişdirməsi Avropa İttifaqının riyakar qurumu olan Avropa Parlamentində yuva salmış antiazərbaycançı şəbəkənin yuxusuna haram qatıb. Buna görə də avroparlamentarilər Vətən müharibəsindən sonra iş-güclərini atıb ölkəmizə qarşı qərəzli qətnamələr qəbul etməklə məşğul olurlar. Vəziyyət o dərəcədə tragikomik hal alıb ki, ötən dörd il ərzində AP-nin rüşvətxor deputatlarının ölkəmizə qarşı ard-arda qəbul etdiyi bədnam qətnamələrin sayı-hesabı itib.**



Hələ 2022-ci ildə Prezident İlham Əliyev Avropa Parlamentinin Xarici əlaqələr komitəsinin sədri Devid MakAlisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etdiyi zaman məhz bu məqama xüsusi vurğu edərək, "Mən hətta Avropa Parlamentinin müxtəlif vaxtlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrinin sayını da yaddan çıxarmışam" deyə bildirmişdi. Dövlət başçısı onu da qeyd etmişdi ki, bəzən elə gəlir ki, bu qətnamələri Ermənistan parlamenti qəbul edir və ya ola bilsin, bəzi erməni lobbi qruplarının onların üzərində müəyyən təsiri var. Əks halda, bunu başa düşmək çox çətindir.

### Qərəz yuvası

Elə Avropa Parlamentinin bu il oktyabrın 24-də qətnamə adı altında qəbul etdiyi kağız parçası da bu qurumun ölkəmizə qərəzini açıq şəkildə ortaya qoyur. Görünən odur ki, ikiüzlü avroparlamentarilər Avropada baş alıb gedən islamofobiya, türkofobiya, antisemitizm, miqrantların hüquqlarının kütləvi və kobud şəkildə pozulması və digər çoxsaylı problemləri həll etmək əvəzinə Azərbaycana qarşı siyasi hücum planları hazırlamaq üçün yarışa giriblər. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçiriləcəyinin məlum olduğu zamandan etibarən korrupsioner avroparlamentarilər Azərbaycana qarşı təzyiq kampaniyasını daha da aktivləşdiriblər. Həm AP-də ölkəmizdəki həqiqətləri əks etdirməyən və böhtan xarakterli bədnam qətnamələr qəbul edilir, həm də ələ aldıqları qərəzli KİV vasitəsilə respublikamızın nüfuzunu hədəf alan çirkin kampaniya aparılır.

"Humanizm"dən dəm vuran ermənipərəst Qərb siyasətçiləri gah Azərbaycanı sanksiyalarla hədələyir, gah ölkəmizi "etnik təmizləmə"də günahlandırır, gah separatçı quldurlara azadlıq istəyir, gah da Qarabağda hansısa tarixi irsin dağıdıldığı barədə yalanlar uydururlar.

### Bölgədə sülhün olması Qərbi qane etmir

Bu il Azərbaycanla Ermənistan arasında normallaşma istiqamətində mühüm addımlar atılıb. Artıq sərhədlərin delimitasiya və demarkasiya işlərinə start verilib, iki ölkə arasında sərhəd dirəkləri quraşdırılıb. Həmçinin Qazax rayonunun 30 ildən artıq işğal altında olan Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri Azərbaycana geri qaytarılıb. Bütün bunlar məhz Azərbaycanın bölgədə sülhü təşviq etməsinin mühüm nəticələridir. Əldə edilən bütün nailiyyətlər ikitərəfli danışıqlar nəticəsində, yəni üçüncü tərəflərin iştirakı olmadan əldə edilib. Bu onu göstərir ki, bölgədə maraqları olan Fransa kimi ölkələr danışıqlar prosesindən nə qədər uzaq dursalar, məsələdə irəliləyiş olar. Hazırda adıçəkilən ölkənin timsalında qərəzli Qərbin regionda sülhü dəstəkləməsini deyil, Ermənistanı silahlandıraraq onu revanşa həvəsləndirməsini müşahidə edirik.

Cənubi Qafqazda sülh istiqamətində baş verən müsbət hadisələrin Qərb təsisatlarını qıcıqlandırması gün kimi aydındır. Bunun nəticəsidir ki, qərəzli addımlar atırlar. Oktyabrın 24-də erməni lobbisinin sözü ilə oturub duran Avropa Parlamentinin "Azərbaycanda vəziyyət, insan hüquqlarının və beynəlxalq hüququn pozulması və Ermənistanla münasibətlər" adlı növbəti qərəzli qətnamə qəbul etməsi elə sülh prosesinə zərbə vurmaqdan başqa bir şey deyil. Avropa İttifaqının adıçəkilən riyakar qurumu həmin dırnaqarası qətnaməsində insan hüquqlarının və beynəlxalq hüququn pozulması ilə bağlı ölkəmizə böhtan atır. Korrupsiya yuvasına çevrilmiş qurum qətnamə qəbul etmək üçün məxsusi olaraq COP29-un keçiriləcəyi ərəfəni seçərək həm də özlüyündə guya dünya ictimaiyyətinin diqqətini ölkəmizdə olan "neqativlər"ə cəlb etmək istəyir.

Azərbaycan Milli Məclisinin AP-nin qəbul etdiyi qərəzli qətnaməni qətiyyətlə pisləyən münasibətində də deyilir ki, bir neçə kağız parçasında Azərbaycana qarşı saxta məlumatlara əsaslanan faktlar, absurd iddialar, ittihamlar, təhdid və tələblər irəli sürülür.

Xatırladaq ki, oktyabrın 25-də Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko Xarici İşlər Nazirliyinə çağırılıb və Avropa Parlamenti tərəfindən sözügedən tarixdə qəbul edilmiş qətnamə, eləcə də bu qurumda baş tutmuş müzakirələr çərçivəsində Avropa Komissarı tərəfindən səsləndirilən əsassız və qərəzli fikirlər qəti şəkildə pislənib və bununla bağlı qarşı tərəfə etiraz notası təqdim edilib.

Göründüyü kimi, Bakıda COP29 kimi dünyamiqyaslı tədbirin keçiriləcəyi vaxta günlər qalmış həyata keçirilən mənfur təbliğat guya ölkəmizin nüfuzuna zərbə vurmaq niyyəti güdür. Ancaq antiazərbaycançı şəbəkənin mərkəzi funksiyasını yerinə yetirən Avropa Parlamentinin apardığı qarayaxma kampaniyası iflasa məhkumdur.

Çünki başdan-başa qərəz, böhtan və iftiralardan ibarət kağız parçaları qəbul etməklə nə ölkəmizin beynəlxalq imicinə hansısa təsir göstərmək, nə də Azərbaycanın siyasi nüfuzuna zərbə vurmaq mümkündür.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Avropa Parlamenti nüfuzunu çoxdan itirib

## Azərbaycana qarşı sistemli və davamlı böhtan kampaniyası bir mərkəzdən idarə olunur

**"Avropa Parlamentinin Azərbaycan əleyhinə qəbul etdiyi növbəti kağız parçası mənə qədim Roma parlamentarisi, natiqi və filosofu Siseronun məşhur deyimini xatırladır. Hələ qədim Roma dövründə qəbul edilən mahiyyətcə riyakar, əsassız, böhtan və yalan xarakterli qərarlara etirazını bildirən Siseron "Heyif ki, kağız qızarmır" deyirdi və bildirirdi ki, əgər Roma parlamentarilərinin zərrə qədər də həya etmədən qəbul etdiyi qərarların yazıldığı kağız canlı olsaydı, onların əvəzinə utanıb-qızarardı".**



Bu fikirləri Milli Məclisin deputatı Elçin Mirzəbəyli "Azərbaycan" qəzetinə Avropa Parlamentinin qəbul etdiyi qətnaməyə münasibət bildirərkən deyib. O qeyd edib ki, qoca qitənin böyük bir hissəsini əhatə edən Avropa Parlamentinin durumu Siseronun dövründəki parlamentdən daha acınacaqlıdır. Çirkli pul müqabilində Ermənistan və erməni diasporu da daxil olmaqla, ayrı-ayrı ölkələrin, təsisatların nüfuz müvəkkilliyini yerinə yetirən parlamentarilərin "meydan suladığı" Avropa Parlamenti öz nüfuzunu çoxdan itirib və parlamentarizm prinsipləri ilə deyil, maraqlarla idarə olunur. Əgər belə olmasaydı, Avropa parlamentariləri ləyaqət hissləri kimi Əsas hüquqlar haqqında Avropa Xartiyasının tələblərini unutmaz və Ermənistan tərəfindən öz evlərindən zorla qovulmuş 300 min azərbaycanlının hüquqlarının müdafiəsi, onların ləyaqətlə geriyə qayıdışının təmin edilməsi ilə bağlı da qətnamə qəbul edərdilər. "Qayıdış hüququ insan hüquqlarının Ümumdünya Bəyannaməsində və Vətənə qayıtmaq hüququnu təmin edən Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda öz əksini tapmış beynəlxalq hüququn əsas prinsiplərindən biridir. Beynəlxalq hüququn bu prinsipi, eləcə də insan hüquq və azadlıqları ilə bağlı digər beynəlxalq normalar Ermənistanda konstitusiya səviyyəsində kobud şəkildə pozulub. Belə ki, Ermənistan Respublikasının Konstitusiyasının 11.3-cü maddəsində dolayısıyla və imperativ hüquqi formada yalnız erməni millətindən olan şəxslərə geriyə qayıdış hüququ verilir. Bu, Ermənistanda konstitusion müstəvidə BMT Nizamnaməsinin, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi Konvensiyasının, həmçinin İnsan Hüquqları üzrə Avropa Konvensiyasının tələblərinin kobud şəkildə pozulmasıdır. Təəssüf ki, Avropa Parlamenti, digər Qərb təsisatları bu günədək Ermənistanın irqçi davranışlarına münasibətdə hər hansı bir mövqe bildirməyiblər", - deyə o əlavə edib.

Deputat deyib ki, Azərbaycana qarşı sistemli və davamlı böhtan, qarayaxma və təzyiq kampaniyalarına gəldikdə isə bu prosesin eyni mərkəzdən idarə olunduğu göz qabağındadır. Proses sinxron şəkildə, ABŞ Dövlət Departamenti, Senatı və Konqresi, həmçinin onların geosiyasi təzyiq elementi və "bəhanə generatorları" kimi ayrı-ayrı sahələr üzrə formalaşdırdıqları "beynəlxalq təşkilatlar", eləcə də Avropa Parlamenti də daxil olmaqla, bir sıra Qərb təsisatlarının iştirakı ilə həyata keçirilir. Əsas məqsəd də 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan və Azərbaycan Ordusunun rüsvayçı məğlubiyyətə uğratdığı təcavüzkar, irqçi Ermənistanı sivilizasiyaların qarşıdurması konsepsiyasına uyğun olaraq, Qərbin forpostu kimi gücləndirməkdən və daim münaqişə yaratmaq, təxribat törətmək potensialına malik olmasını təmin etməkdən ibarətdir. Başqa bir amil isə Ermənistanın öz fundamental öhdəliklərini təmin etmədən, onun istədiyi və gələcəkdə xarici müdaxilə, təzyiqlər üçün imkan yarada biləcək yarımçıq sülh müqaviləsinin imzalanmasına nail olmaqdır. Bu həm də xarici siyasətdə rüsvayçı məğlubiyyətlərə imza atan "demokratlar"ın seçki kampaniyasında "uğur" kimi təqdim edə biləcəkləri təbliğat elementi kimi onlara lazımdır.

E.Mirzəbəyli vurğulayıb ki, digər bir məsələ isə Azərbaycanın COP29-un təşkilindən əldə edəcəyi yüksək dividendlərin üzərinə öncədən kölgə salmaq istəyi ilə bağlıdır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Qərbin mövqeyi

## Gürcüstanın Avropaya inteqrasiyasını siyasi alətə çevirdiyini göstərir

**"Oktyabrın 26-da Gürcüstanda keçirilmiş parlament seçkilərinin nəticələrinə görə, 5 faizlik baryer 5 seçki subyekti tərəfindən keçilib. Beləliklə, "Gürcü Arzusu" partiyası parlamentdə 89, "Dəyişikliklər Koalisiyası" 19, "Birlik-Vahid Milli Hərəkat" 16, "Güclü Gürcüstan" 14, "Qaxariya-Gürcüstan naminə" 12 mandatla təmsil olunacaq. Hələlik partiyalardan 4-ü parlamentə daxil olmaqdan imtina edib".**



Bu sözləri "Azərbaycan" qəzetinə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Nəsibə Mirzəyeva deyib. O bildirib ki, Gürcüstanda seçkinin nəticələri ilə bağlı, xüsusilə Qərb tərəfindən ikili standartlar müşahidə olunur. İlkin nəticələr açıqlandıqdan dərhal sonra Macarıstanın Baş naziri Viktor Orbanın Tbilisiyə səfər etməsindən və qələbə münasibətilə Baş naziri təbrikdən sonra 13 Avropa ölkəsi tərəfindən onun səfərinin Avropa İttifaqını tərənnüm etmədiyi ilə bağlı bəyanat yayıldı. Seçki Müşahidə Təşkilatlarının Avropa Şəbəkəsinin (ENEMO) müşahidə missiyasının rəhbəri Zlatko Vujoviç prosesin qütbləşmiş mühitdə keçirildiyini bildirsə də, ATƏT missiyası seçkilərin səviyyəsini müsbət dəyərləndirərək gərgin vəziyyət, gizli səsvermənin pozulması, prosessual uyğunsuzluqlarla bağlı bir sıra problemləri də sadalayıb. "Almaniya Xarici İşlər Nazirliyi ATƏT/DTİHB-nin Gürcüstan seçkiləri ilə bağlı ilkin qiymətləndirməsini tam dəstəklədiyini, lakin gərginlik və qanun pozuntuları barədə məlumatlardan narahat olduğunu bildirib. Bəyanatda deyilir ki, Almaniya hökuməti bütün tərəfləri təmkinli olmağa, zorakılıqdan və gələcək qütbləşmədən qaçmağa çağırır. Avropa Şurasının prezidenti Şarl Mişel də seçkilərlə əlaqədar MSK və müvafiq orqanların qanun pozuntuları ilə bağlı araşdırma aparmağa çağırıb. ABŞ Dövlət Departamenti Gürcüstanda keçirilən seçkilərin bütövlüyünə inamın sarsıldığını bildirib və qanun pozuntuları ilə bağlı bütün məlumatların araşdırılmasına çağırıb. Birləşmiş Ştatlar Dövlət Departamentinin sözçüsü Metyu Miller brifinqdə Gürcüstan hökumətinin kursunun dəyişməli olduğunu dilə gətirib. ABŞ Prezidenti Co Bayden Gürcüstan hökumətini seçkilərdəki bütün pozuntuları şəffaf şəkildə araşdırmağa, "Xarici agentlər haqqında" qanunu ləğv etməyə və Gürcüstandakı bütün siyasi qüvvələrlə seçkilərin bütövlüyünü bərpa etmək üçün dərhal dialoqa başlamağa çağırıb. Avropa İttifaqının Xarici siyasət üzrə nümayəndəsi Cosep Borel Gürcüstandakı seçkilərdə bütün pozuntuların təcili araşdırılmasını tələb edib", - deyə o xatırladıb.

N.Mirzəyeva qeyd edib ki, Kanada Xarici İşlər Nazirliyinin bəyanatında isə Böyük Yeddilik və Avropadan olan tərəfdaşlarla koordinasiyada ölkədə keçirilən parlament seçkilərinin gedişi və nəticələrinə görə Gürcüstanla münasibətlərə yenidən baxılacağı qeyd edilib. İsveçin xarici ticarət və beynəlxalq əməkdaşlıq naziri Benjamin Duza münasibətlərin dayandırılması qərarının seçkilərdən əvvəl verildiyini dilə gətirib. Aİ-nin Gürcüstandakı səfiri Pavel Herçinski təsdiqləyib ki, Gürcüstanın Aİ-yə daxilolma prosesi "dəyərlərindən uzaqlaşdıqca" dayandırılacaq. Danimarka, Finlandiya, İslandiya, Norveç və İsveç də Gürcüstanda keçirilən parlament seçkilərində pozuntular barədə məlumatların araşdırılması çağırışlarına qoşulub. Müvafiq bəyanat Norveç Xarici İşlər Nazirliyi tərəfindən dərc olunub.

Siyasi təhlilçi bildirib ki, bütün bunlar Qərbin öz maraqlarını güdməsinin nəticəsidir. Gürcüstan parlamentinin eks-spikeri Şalva Papuaşvili Qərbin parlament seçkiləri ilə bağlı təzyiq dalğasını şərh edərək Qərb oyunçularını tənqidlərini faktlarla əsaslandırmağı tövsiyə edib: "Mərkəzi Seçki Komissiyasının şəffaf təşkilat olaraq fəaliyyət göstərdiyini dilə gətirən Ş.Papuaşvili şikayətlərin təqdim edilməsi üçün çağırış edib və həmin iddiaların araşdırılacağını söyləyib. Öz növbəsində Gürcüstan Prokurorluğu tərəfindən də seçkilərin saxtalaşdırılması ilə bağlı iddiaları olan şəxslərin əməkdaşlığa dəvət olunduğu ilə bağlı açıqlamasını görə bilərik. "Gürcü Arzusu"nun qənaətincə, Brüsseldə rəsmilər tərəfindən seçki prosesi hədsiz dərəcədə siyasiləşdirilib və bu cür yanaşma ölkənin Avropaya inteqrasiyasını siyasi alətə çevirib. Bu cəhd isə öz növbəsində Avropa İttifaqının nüfuzuna xələl gətirməkdədir. Hesab olunur ki, Gürcüstanın Avropa İttifaqına üzvlüyünün dayandırılması ilə bağlı deyilənlər əsassızdır".

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

# Aleksandr TİXANSKİ: "Erməni millətçiləri həm Rusiyaya, həm də "ruspərəst" adlandırdıqları Gürcüstan hökumətinə nifrət edirlər"

**"Bu gün bir çox erməni millətçisi, o cümlədən gürcü pasportu olanlar həm Rusiyaya, həm də "ruspərəst" adlandırdıqları Gürcüstan hökumətinə nifrət edirlər".**

Bu fikirləri hərbi-siyasi analitik, sosiologiya elmləri namizədi, Belarus Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun baş elmi işçisi Aleksandr Tixanski oktyabrın 26-da Gürcüstanda keçirilən parlament seçkiləri ərəfəsində və ondan sonra Ermənistanda gürcü müxalifətini dəstəkləyən bəyanatların səslənməsi faktlarını AZƏRTAC-a şərh edərkən bildirib.

Ekspert bu vəziyyəti erməni millətçilərinin Gürcüstanı Qərblə Rusiya arasında döyüş meydanına çevirmək istəyi ilə izah edib: "Erməni ekspertlər səsvermənin elektron formatda keçirilməsindən təəssüflənir, çünki seçkilərin nəticələrini saxtalaşdırmaq çətin idi. Qanun pozuntuları ilə bağlı faktlar o qədər də inandırıcı deyil. Seçki dairələrinin ən azı 75 faizində seçkilər elektron qaydada keçirildiyi üçün pozuntuların olduğunu söyləmək çətindir. Bəli, müəyyən problemlər var idi, amma ümumilikdə deyə bilərik ki, seçkilər bəzi nöqsanlarla baş tutmuş sayılır".

Tixanski əlavə edib: "Gürcüstanda gedən proseslər, qonşu ölkədə siyasətin necə davam edəcəyi Ermənistan üçün önəmlidir. Belə ki, Ermənistanın ixrac və idxalının təxminən 70 faizi Gürcüstan ərazisindən keçir. Ermənilərin Gürcüstandakı iğtişaşlara verdiyi dəstək siyasi elitanın qonşu ölkədə hakimiyyəti dəyişməyə yönəlmiş hərəkətləri ilə izah olunur. Erməni elitası Mixeil Saakaşvilinin "Vahid Milli Hərəkat" partiyası ilə xarici agentlər haqqında qanunun qəbuluna qarşı birgə müraciət imzalayanda hamını təəccübləndirib. Ermənistanın siyasi elitasının bir hissəsinin Gürcüstan hakimiyyətinə qarşı çıxması, bu ölkənin daxili işlərinə qarışması ilə bağlı vəziyyətin özü



unikaldır. Aydındır ki, erməni millətçiləri Gürcüstan müxalifəti ilə eyni komandada işləyir. Siyasi elitanın bu hissəsi müəyyən ölkələrdə birləşərək bir-birini dəstəkləməyi xoşlayır. Onlar qarşılıqlı əlaqədə olur və postsovet dövlətlərini Rusiyadan ayırmaq üçün fəal işləyirlər. Beləliklə, Ermənistan iqtidarı və müxalifəti göstərdi ki, onlar da Qərbin sifarişi ilə hərəkət edirlər. Gürcüstanda seçkilərdən sonra vəziyyətin sabitliyini pozmaq üçün təxribatçılara, o cümlədən vicdan əzabı çəkmədən digər Gürcüstan vətəndaşlarını öldürməyə başlaya bilənlərə ehtiyac var. Çox təəssüf ki, həm Qərbdə, həm də Qərbyönlü müxalifətdə belə insanlar var. Onların arasında etnik ermənilər və ikili vətəndaşlığı olanlar - erməni və gürcülər də var. O cümlədən Ermənistan Respublikasında daimi yaşayanlar və Qarabağdan olan zərərsizləşdirilməmiş yaraqlılar seçkiyə qədər Gürcüstana köçürülə bilər".

Ekspert bununla bağlı xatırladıb ki, oxşar ssenari artıq NATO-nun Brüsseldəki mənzil-qərargahında müzakirə olunub və burada Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla alyans nümayəndələri arasında görüşlər keçirilib. Görüşdə Ermənistan xüsusi xidmət orqanlarının Gürcüstanda yaşayan etnik ermənilər arasında yaradılmış agent şəbəkəsinin köməyi ilə "aktiv tədbirlər" hazırladığı açıqlanıb.

"Ermənistanda işə götürülən şəxslərin iştirakı ilə fəal şəkildə hazırlıq işləri aparılır. Bu hadisələrə küçə toqquşmaları elementləri daxildir. Gözlənilir ki, yaxın gələcəkdə onlara Balkan ölkələrindən əvvəllər aktiv şəkildə Serbiya hökumətinə qarşı fəaliyyət göstərən ən təcrübəli mütəxəssislər də qoşulacaq. Gürcüstanda münaqişənin alovlanmasında bu cür təxribatçıların rolunu lazımınca qiymətləndirməmək olmaz. Bu baxımdan 2019-cu ilin yayında rusiyalı deputat Qavrilovun spiker kürsüsündə əyləşdirilməsindən sonra yaranmış emosional vəziyyətdən istifadə edən müxalifətin parlament binasını ələ keçirməyə cəhd etməsini xatırlatmaq yerinə düşər. Daha sonra Ermənistan vətəndaşları da saxlanılıb. Bu gün bir çox erməni millətçisi, o cümlədən gürcü pasportu olanlar həm Rusiyaya, həm də "Rusiyapərəst" adlandırdıqları Gürcüstan hökumətinə nifrət edirlər", - deyə analitik vurğulayıb.

Tixanskinin fikrincə, əvvəllər Rusiyaya sevgi və ümid bəsləmiş bir çox erməni separatçısı indi ümidlərini Qərbə bağlayır.

"Öz xalqından dəfələrlə geosiyasi oyunlarda istifadə edən erməni millətçiləri Gürcüstanı Qərblə Rusiya arasında döyüş meydanına çevirmək istəyirlər. "Rusiyayönlü" erməni lobbisi qeyri-sabit vəziyyətdən sui-istifadə edərək Rusiya ordusunun Gürcüstana yenidən girməsini təhrik etməyə çalışır. Öz növbəsində İrəvan yeni revanşist müharibənin baş verəcəyi təqdirdə Gürcüstana Qərbin hərbi tranziti üçün ərazi kimi baxır. Bu, Tbilisidə Qərbyönlü müxalifətin hakimiyyətə gələrək Rusiyaya qarşı "ikinci cəbhə" açacağı halda baş verə bilər. Hər iki ssenari gürcü dövlətçiliyi üçün faciəli ola bilər. Ona görə də Gürcüstanda sabitlik və əmin-amanlıq təkcə Rusiyanın deyil, Türkiyə və Azərbaycanın da maraqlarına cavab verir", - deyə ekspert sözlərini yekunlaşdırıb.



Səndən ötrü can verməyə cümlə hazırız,
Səndən ötrü qan tökməyə cümlə qadiriz!..

# Şəhidliyindən sonra ata oldu

## Daxili İşlər Nazirliyinin "Qarabağ" ordenli şəhid baş leytenantı Kamran Kazımovun şərəfli həyat yolu

◆Vətən oldu oğullar

**2020-ci il oktyabrın 5-dən 6-na keçən gecə idi...**

**Səhərə qədər küləklə yağış bir-biri ilə qovğa aparmış, gah külək güclənmiş, gah da yağış şiddətlənmişdi. Amma sonda yağış üstün gəlmişdi, yerə elə leysan tökülmüşdü ki, hər yanı su basmışdı. Həmin gecə onsuz da neçə gündür ki, döyüşdə olan Kamrandan xəbər ala bilməməyin nigarançılığı, narahatçılığı içərisində olan və səhərləri dirigözlü açan Kazımovlar ailəsinin üzərinə havanın qaramatı də bir yandan çökmüşdü.**

Kamranın 7 yaşlı qızı Aydanın sübh tezdən ağlamsınaraq babasına "Qağa, indi yəqin atam da bu yağışda islanıb, üşüyür hə?!.", sualını ünvanlaması isə onların ürəklərinə çalın-çarpaz dağ çəkmiş, cəmi bir neçə saatdan sonra Daxili İşlər Nazirliyi Daxili Qoşunların baş leytenantı Kamran Kazımovun qara xəbərini almaları ilə bütöv ailə tabloları çilik-çilik olub dağılmışdı...

Kazımovlar ailəsi bir andaca oğulsuz, ömür-gün yoldaşsız, atasız, qardaşsız - Kamransız qalmışdılar...

O "ağlar" gecədə hələ ana bətnində olan iki aylıq körpənin taleyinə daha amansız, daha ağrı-acılı qismət yazılmışdı...

Yeddi aydan sonra o körpə dünyaya gələndə atası yanında olmayacaq, onu bağrına basmayacaq, gül ətrini ciyərlərinə çəkməyəcəkdi... O, günlərini İkinci Fəxri xiyabanda keçirib böyüyəcək, ilk addımlarını da elə orada atacaqdı... Dili söz tutar tutmaz "ata, ay ata", - deyə çağırıb "hay" almaq istəyəcəkdi, körpə yanağını soyuq məzar daşına söykəyib isti ata həniri axtaracaqdı...

Lakin...

### Murovdağın qəhrəmanı



2020-ci il sentyabrın 27-dən - Vətən müharibəsinin elə ilk günündən baş leytenant Kamran Kazımovun qəhrəmanlıqla dolu döyüş yolu başlamışdı. Savaşdan bir gün əvvəl evlərinə zəng vurub həyat yoldaşını, azyaşlı övladlarını, anasını, qardaş-bacısını atasına, atasını isə Allaha əmanət edən cəsur komandir döyüşlərə atılmışdı. Murovdağ istiqamətində bir sıra strateji yüksəkliklərin azad olunması uğrunda başlayan ilk hərbi əməliyyatlarda peşəkarlığı ilə seçilən Kamran Kazımovun döyüş yoldaşları sonradan danışıblar ki, düşmənə aman verməyən bu cəsur oğul hər an şirin canını torpaqlarımızın azadlığı uğrunda qurban verməyə hazır olub, ana yurd uğrunda şəhid olmağın onun üçün şərəf olduğunu söyləyib. Bir yandan düşmənin başına od-alov yağdıran qorxmaz igid digər yandan da qızğın döyüşlərin getdiyi məqamlarda belə irəli atılaraq neçə-neçə yaralı hərbçi qulluqçumuzu ölümün pəncəsindən xilas edib.

Düşmənə qəzəb hissi ilə silahlanmış baş leytenant Kamran Kazımov eşidəndə ki, onları Murovdağ istiqamətindən geri çağırırlar, əvvəlcə bunu müharibənin dayanması kimi başa düşür. Ucadan deyir ki, "Biz qətiyyən dayanmamalıyıq. İrəli gedib torpaqlarımızın hamısını azad etməliyik. Düşməndən şəhidlərimizin qisasını almalıyıq".

Amma sonradan müharibənin dayanmadığını, sadəcə hərbi əməliyyat bölgələrinin dəyişdirilməsini biləndə bunu toy-bayram kimi qəbul edir.

Bu dəfə Kamran Kazımovun müharibə yolu Cəbrayıl istiqamətinə yönləndirilir. Komandir tabeliyindəki döyüşçülərlə birgə düşmənlə ölüm-dirim savaşına atılaraq onları torpaqlarımızdan qovmağa başlayır. Şiddətli döyüşlərdən qısa müddətlik başı ayılanda isə ondan nigaran qalan ailəsinə zəng vurur. Hal-əhval tutmazdan əvvəl isə mütləq onlarla torpaqlarımızın azadlığının sevincini bölüşür. Doğmalarına ondan narahat olmamalarını tapşırır, tezliklə görüşəcəklərini, qələbə ilə geri dönəcəyini deyir.

Öz-özünə doğmalarının boynuna sarılacağı, bir neçə aydan sonra doğulacaq körpəsini bağrına basacağı xoşbəxt günlərinin xəyalını qurur...

Amma zalım fələyin onun üçün tamam ayrı tale yolu cızdığından xəbərsiz idi...

### İllərin uğuru

Kamran Qurbanəli oğlu Kazımov 1990-cı il dekabrın 7-də Rusiya Federasiyasının Voloqda vilayətinin Vaşhi rayonunda anadan olub.

1992-ci ildən ailəsi ilə birgə Azərbaycanda yaşamağa başlayıb. 1997-2008-ci illərdə Xətai rayonunun 63 nömrəli tam orta məktəbində təhsil alıb.

2010-cu ildə Xətai Rayon Hərbi Komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb və 2011-ci ilə qədər Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan sonra Kamran Kazımov müddətdən artıq hərbi xidmətə başlayıb, xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsində davam etdirib. 2012-ci ildə Daxili Qoşunların zabit hazırlayan Orta İxtisas Hərbi Məktəbinə (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) daxil olub. 2014-cü ildə bu hərbi təhsil ocağını bitirərək "leytenant" hərbi rütbəsi alan Kamran yenidən "N" saylı hərbi hissədə xidmətini davam etdirib.

Əks-hücum əməliyyatlarınadək burada müxtəlif bölmələrin tərkibində taqım və qrup komandiri vəzifələrində çalışıb. Nümunəvi komandir kimi bilik və bacarığı sayəsində rəislərinin etimadını və tabeliyində olan şəxsi heyətin hörmətini qazanmağa müvəffəq olub. Hər zaman yüksək döyüş hazırlığı və qüsursuz xidməti ilə fərqlənən hərbi qulluqçu kimi 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilib.

### Axırıncı döyüş



Kamran Kazımov 2020-ci il oktyabrın 5-də Cəbrayıl istiqamətində gedən döyüşlərdə də qəhrəmanlıq nümayiş etdirir. O, "Kobra" xüsusi təyinatlı dəstənin döyüşçüləri ilə birgə qarşıya qoyulan döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirir. Bu döyüşlərdə baş leytenant dəstənin şəxsi heyəti ilə birgə düşmənin Cəbrayıl şəhəri ətrafındakı yüksəkliklərdə yerləşən bir neçə strateji postunu ələ keçirərək, ermənilərin 38 nəfər canlı qüvvəsini, o cümlədən iki tankını, dörd topunu və biri sursat daşıyan iki avtomobilini məhv edir. Düşmənin yüksəkrütbəli komandiri və sürücüsü UAZ markalı avtomobillə döyüş meydanını tərk edərək qaçmaq istəyərkən baş leytenant Kamran Kazımov tərəfindən "Muxa" tipli qumbaraatanla məhv edilir.

Düşmənin xeyli əlavə qüvvə toplayaraq yenidən hücuma keçmək niyyətini anlayan igid komandir şəxsi heyət mühasirəyə düşməsin deyə, onlara geri çəkilməyi əmr edir. Özü isə iki döyüşçü ilə birlikdə atəş dəstəyi ilə düşmənin irəliləməsinin qarşısını alır. Lakin bu, Kamran Kazımovun Vətən müharibəsində sonuncu qəhrəmanlıq döyüşü olur. Şiddətli döyüş zamanı snayper gülləsinə tuş gələrək ağır yaralanan qəhrəman komandir şəhid olur.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş leytenantı Kamran Kazımov 2020-ci il oktyabrın 6-da Bakıdakı İkinci Fəxri xiyabanda dəfn olunub.

Prezidentin sərəncamları ilə "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib. Xətai rayonunda qəhrəmanın adına küçə verilib...

### "Dedi ki, Kamran şəhid olub"



Uşaq yaşlarından vətənpərvərlik ruhunda böyüyən Kamranın ən böyük arzusu hüquqşünas olmaq idi. Amma imtahan zamanı istədiyi ixtisasa qəbul üçün balı çatmır. Bundan sonra digər ixtisasları seçmir və meylini hərbçi olmağa salır.



Vaxtilə özünün də hərbçi olduğunu və Daxili Qoşunlarda polkovnik-leytenant rütbəsində xidmət etdiyini söyləyən şəhidin atası Qurbanəli Kazımov deyir ki, əvvəlcə oğluna hərbçi peşəsinin çox çətin olduğunu söyləyib onu fikrindən daşındırmağa çalışsa da, Kamranın inadı qarşısında geri çəkilməli olur. Beləcə Kamran Kazımovun peşəkar hərbçi həyatı başlayır:

Atası Qurbanəli Kazımov bizimlə söhbətində dedi:

- 2020-ci ildə Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və digər hərbçilərimizin şəhidlik xəbəri Kamranı da dərindən sarsıtmışdı. Yaman qanıqara idi. Əsəbiləşirdi, deyirdi ki, "İrəli" əmri verilsəydi, gedib düşmənin dərsini verərdik, qisasımızı alardıq...

Elə iyul hadisələrindən sonra Kamran gəlib dedi ki, Müdafiə Nazirliyinin ümumi qoşunları ilə birgə təlimlərə gedəcəklər. Birgə təlimlərin keçirilməsi mənə bir az qəribə gəlsə də, müharibə olacağı ağlımın ucundan da keçmədi. Düzdür, hərbçi olaraq analiz edib bilirdim ki, gec-tez işğal altında olan torpaqlarımız azad olunmalıdır, belə qala bilməz. Amma döyüş əməliyyatlarının məhz indi olacağını düşünmürdüm.

Təlim ərəfəsində Kamran iki dəfə gəlib evdə gecələdi. Sonuncu dəfə sentyabrın 19-da axşam evə gəldi və 20-si səhər günortaya yaxın ailəsiylə, uşaqlarıyla, anasıyla, qardaşıyla görüşüb ayrıldı. Aparıb onu yola saldım, hərbçi yoldaşları ilə birgə təlim yerinə getdilər. Bu, Kamranla son görüşümüz oldu. Bir daha onu görmədik. O, bizimlə vidalaşanda da heç hiss etdirmədi ki, müharibəyə yollanır. Ümumiyyətlə heç zaman xidməti barədə evdə danışmazdı. Kamran bir də sentyabrın 26-da axşam saatlarında zəng vurub dedi ki, "ola bilsin ki, bir neçə gün bizə zəng çatmasın. Mənə zəng vurmayın, imkan olanda özüm yığıb sizinlə danışacam". Səhəri gün tezdən televiziyadan eşitdik ki, əks-hücum əməliyyatları başlayıb.

Düz üç gün Kamranla danışa bilmədik. Çox narahat idik. Sentyabrın 30-da səhər tezdən gördük ondan zəng gəldi. Elə bil üstümüzdən dağ götürüldü. Hamımızla danışdı, dedi ki, "narahat olmayın, hər şey yaxşıdır..." Üstüörtülü dedi ki, əvvəlki mövqelərindən arxaya bir neçə saatlıq istirahətə gəliblər, sonra başqa istiqamətdə əməliyyatlara qoşulacaqlar. Bir də oktyabrın 3-də Kamran səhər zəng vurdu, onunla danışanda telefonda mərmi partlayışları, güllə səsləri eşidirdim. O, hər nə qədər "narahat olmayın, yaxşıyam" desə də, səsində titrəyiş hiss edirdim. Dedim ki, "nə olub sənə? Yaralanmısan?" Cavab verdi ki, "yox heç nə yoxdur. Sadəcə müharibədir, hər şey ola bilər. Uşaqlarım, yoldaşım, anam sənə əmanətdir". Həmin gün axşamtərəfi bir də zəng vurub hamımızla danışdı, sağollaşdı...

Ondan sonra Kamrandan heç bir xəbər ala bilmədik. Oktyabrın 6-da Daxili Qoşunların baş idarəsinə zəng vurub ondan xəbər bilmək istədim, ancaq heç bir məlumat olmadığını dedilər. Az sonra zəng vurub ünvanımızı soruşdular. Bütün bunlar mənə şübhəli görünsə də, ağlıma kədərli heç nə gətirməməyə çalışdım.

Heç üzərindən 5 dəqiqə keçməmiş yenidən baş idarədən zəng vuran bir nəfər dedi ki, "Qurbanəli müəllim, uzun müddət özünüz də hərbçi olmusunuz. Yəqin sizə nə demək istədiyimi başa düşürsünüz?" Özümü güc-bəla ilə toplayıb bircə kəlmə soruşdum ki, "Kamran şəhid olub?" Dedi ki, "bəli, dünən axşam saatlarında Cəbrayılda şəhid olub". (Ağlayır)

### "Aç gözünü, oyan, oğlum!.."

Oktyabrın 6-da Kamranın şəhidliyindən xəbər tutan qonum-qonşu, rayonda yaşayan qohumlar hamısı axışıb onun yaşadığı küçəyə yığışmışdılar. Amma heç kim bu qara xəbəri ailəsinə deməyə özündə cəsarət tapmırdı. Elə bu məşum dəqiqələrdə qəfil Kamrangilin həyətindən qopan qadın naləsi isə eşidən hər kəsi dərindən sarsıdır.

Hamı Kazımovların həyətinə axışıb indicə ürəyindən oğul yarası alan Elmira ananın başına yığışır. Bir müddətdən sonra şəhidin tabutu gətiriləndə isə ağlamaqdan, üz-gözünü cırmaqdan taqətdən düşən ananın tabutu açdıraraq oğlunun nəşinə sarılması, balasının boyunu oxşaması, onu qucaqlayıb ayrılmaq istəməməsi bu faciəvi səhnəyə şahidlik edənlərin tüklərini ürpəşdirir, göz yaşlarına boğur... Daha təsəlliyə yer qalmır...

Anası Elmira söhbətə qoşulur:

- Tabutu açdılar. Elə bil ki, balam dərin yuxuya getmişdi... Azca rəngi saralmışdı... Üz-gözündən öpdüm, nə qədər harayladım ki, "Aç gözünü, Kamran, oyan, oğlum!.." O, oyanmadı... Həyatımda ilk dəfə idi ki, oğlum sözümdən çıxırdı, mənə hay vermirdi...

Bəlkə də tabutu açdırmaqda düz etməmişdim, amma sanki bununla gözümün yollardan yığılacağını düşünürdüm. Amma bununla belə, hələ də Kamranın şəhid olduğuna inanmıram, onun yolunu gözləyirəm...



Nəinki oğlumun şəhidliyinə, heç yaralanmağına belə inanmırdım. O özündən elə əmin, qorxusuz idi ki... Kamranın iki yaşı olanda Bakıya köçmüşdük, kirayədə qalırdıq. 1990-cı illərin müharibə dövrü idi. Atası hərbçi olduğu üçün günlərlə evdə olmurdu, ikimiz birlikdə qalırdıq. Özünü kişi kimi aparıb mənə hayan olurdu. O vaxt çörəyi növbəylə alırdıq. Elə olurdu gecəyə qədər belə növbəmiz çatmırdı, evə əliboş qayıdırdıq. O, uşaqlığı ilə nə aclığını, yorğunluğunu, nə də yuxusuzluğunu büruzə verirdi, yol boyu "Marş irəli, Azərbaycan əsgəri"ni oxuyurdu.

Kamran enerjili, həyat dolu biri idi. Məktəbdə həm dərslərini yaxşı oxuyur, həm də bütün tədbirlərdə fəal iştirak edirdi. Orta məktəbdə oxuduğu illərdə karate ilə məşğul olurdu, 1-ci dan "Qara kəmər" ustası dərəcəsinədək yüksəlmişdi. Bununla yanaşı, musiqi ilə həvəskar səviyyədə məşğul olurdu və sintezatorda ifa etməyi bacarırdı. Bizi başına yığıb Azərbaycan klassik mahnılarını elə gözəl ifa edərdi ki...

Kamran mənə dayaq idi, elə bil onunla ikimiz bir yerdə boy atırdıq. O həm oğlum, həm sirdaşım, həm də dostum idi...

Demə, yaşamaq Kamranlı günlərdə imiş. İndi mən yaşamıram, sadəcə ona qovuşmaq üçün günlərimi sayıram. Oğlum şəhid olandan sonra ən yaxın sirdaşım gecələr olub. İnsanlar var səhərin açılmağını, mən isə gecənin düşməyini arzulayıram. Sübhə qədər Kamranın ruhu ilə danışıb ağlayıram... Günəş doğub səhər açılanda çox pis oluram, deyirəm ki, "İlahi, bu əzablarla daha bir gün yaşayacam..."

Bala dərdinə dözmək çox çətindir...

Oğlumun şəhidlik zirvəsinə ucalan zaman əynində olan qana, palçığa bulaşmış hərbi formasını hələ də yumamışam. Vəsiyyət eləmişəm ki, dünyamı dəyişəndə məni o formayla birgə basdırsınlar...

### Son istək, son əmanət



Kamran peşəkar hərbçi, igid döyüşçü, hər şeydən əvvəl mükəmməl ailə başçısı, həyat yoldaşı, əziz ata idi... 2012-ci ilin yağışlı bir mart günündə Kamranla Şəhlanın toyları çalınmış, həyat yolunda qoşa addımlamağa başlamış, ata-ana olmağın fərəhini duymuşdular. Tanrı onlara bir qız, bir oğul övladı bəxş etmişdi. Adlarını Aydanla Ərtoğrul qoymuşdular. 2020-ci ilin iyulunda isə Kamranla Şəhla yenidən valideyn olacaqlarının xoş xəbəri ilə sevinmişdilər. Nədənsə hələ cinsiyyəti bəlli olmayan körpənin oğlan olacağı ilə bağlı bir hiss doğmuşdu Kamranın içinə. Ona görə Vətən müharibəsində od-alovun içərisindən ömür-gün yoldaşına mesaj yazmışdı ki, "Şəhla, sağ-salamat qayıtsam, uşağın adı "Alparslan" olar, əgər qayıtmasam, "Kamran" qoyarsan".

Həyat yoldaşı Şəhla qəm-qüssə içində Kamranlı günlərini xatırladı:

- Onunla nişanlanandan sonra əsgərliyə getdi və oradan qayıdıb bir müddət işlədikdən sonra 2012-ci ildə evləndik. Elə ailə qurduğumuz il Kamran ali hərbi məktəbə qəbul oldu. Həmin zaman Aydan dünyaya gəldi. O, oxuduğu 2 il müddətində ancaq şənbə və bazar günləri evə gəlirdi. Ümumiyyətlə, hərbçi kimi demək olar ki, zamanının çoxunu kurslarda, təlimlərdə keçirirdi. Amma işlərinin çoxluğuna, yorğunluğuna baxmayaraq, hər zaman ailəsinə vaxt ayırmağa çalışırdı. Kamran o qədər ailəcanlı, qayğıkeş, mehriban idi ki... Uşaqları ilə nəfəs alırdı... Vaxtını onlarla keçirməkdən həzz alırdı...

Müharibədən az əvvəl təlimlərə getmişdi. O zaman iki aylıq hamilə idim. O, ayda bir dəfə evə gəlirdi. Baxırdım ki, üzü tüklüdür. Narahatlıqla soruşurdum ki, "Kamran siz nə işlə məşğulsunuz ki, heç üzünü taraş etməyə də vaxt tapmırsan?" O isə deyirdi ki, "narahat olma, heç nə yoxdur, sadəcə təlimlər ağırdır, vaxtımız yoxdur".

Bəlkə də o müharibənin olacağını bilirdi, amma bizə bu barədə heç nə demirdi.

Heç döyüşə gedəndə də bizə bildirməmişdi...

Hamiləliyimlə bağlı həkim müayinəsinə də getmirdim. Elə bilirdim ki, müharibə tez qurtaracaq və Kamranla birgə həkimə gedəcəyik. Ancaq oktyabrın 3-də telefonla danışanda o dedi ki, "həkimə get, məni gözləmə. Bəlkə beş aydan, bir ildən sonra qayıtdım..." Dedim ki, "yox, sənsiz getməyəcəm, səni gözləyəcəm. Gələrsən, ikimiz bir yerdə gedərik". Ağlıma gəlməzdi ki, bir daha Kamran yanımıza qayıtmayacaq. Körpəmizin atasının üzünü görməyəcəyini düşünmək belə məni dəhşətə salırdı.

Oktyabrın 3-dən sonra Kamrandan xəbər ala bilmirdik. Qayınatam hər yerdən onu soraqlayırdı, amma heç bir məlumat ala bilmirdi. Ayın 6-da səhər saatlarında o, qaynım Orxanı və Ərtoğrulu götürüb yenə getdi ki, görsün nəsə öyrənə bilərmi? Getməklərinin üzərindən heç yarım saat keçməmiş gördüm ki, qayıtdılar. Qayıdışları ilə elə bil həyətdə qiyamət qopdu. Hamı ağlaşır, özünü döyür, nalə çəkirdi. Sanki dünya üzərimə çökmüşdü, amma heç cür Kamranın şəhid olmasına qəbullanmaq istəmirdim. Çarəsizcə özümə təskinlik verməyə çalışır, deyirdim ki, "burada nəsə yanlışlıq var. Kamran peşəkardır, o qədər kurslar, təlimlər keçib, hərbi sahəni dərinliklərinə qədər bilir, ona heç nə olmaz..."

Kamran mənim arxalandığım dağ idi. Ona ölümü yaraşdırmırdım... Amma demək bizim də yazımız bu imiş...

### Kamrandan sonra...



- Kamranın şəhidliyindən sonra düz yeddi ay ərzində düşündüyüm təkcə o idi ki, körpəmiz doğulub dili söz tutandan sonra atasını istəyəcək. O zaman ona nə cavab verəcəm?!

Təsəvvür edin ki, heç istəmirdim ki, o uşaq dünyaya gəlsin. Mənə elə gəlirdi ki, o uşağın ayağı bizə düşmədi, ailəmiz darmadağın oldu. Hətta qızımız doğulandan sonra iki-üç gün onu qucağıma almadım. Ancaq elə məni həyata bağlayan da yenə o körpə oldu. Kamrana söz vermişdim ki, övladımıza onun adını qoyacam. Ona görə də qızımıza atasının adına uyğun "Kamrana" adını verdim.

O, dünyaya gözünü açandan İkinci Fəxri xiyabanda böyüdü. İndi atasının məzarı üzərinə gedəndə qaça-qaça hamıdan qabaq gedir. Deyir ki, "ana, gülü ver mən aparım". Aparıb gülləri məzarın üzərinə düzür...

Kamrananı iki aydır bağçaya qoymuşam. Yəqin orada uşaqların ataları ilə birgə bağçaya gəldiyini görür deyə, gəlib mənə deyir ki, "ana, ataya zəng vur gəlsin". Videolarda atasını göstərirəm ki, "bax ata budur". Uşaq ağlayır ki, "yox, onu istəmirəm. Ata evdən gəlsin..."

Bunları yaşamaq ağırdır... Allah heç bir qadına, anaya bu dərdi göstərməsin... Dünyanın heç bir maddi təminatı Kamranın isti



nəfəsini bizim üçün əvəz eləyə bilməz. Bəlkə də atalarının sağlığında olduğundan da artıq uşaqlar üçün hər şey edirəm, istər alış-veriş, əyləncə, gəzmək olsun... Çalışıram az da olsa, başları qarışsın. Amma nə etsəm, yenə də görürəm ki, alınmır. Onlar məhz atalarının yanlarında olmalarını istəyirlər. Övlad üçün atanı heç nə əvəz eləmir...

Həmişə Kamranla uşaqlarımızın gələcəyi barədə danışırdıq. O əvvəl yaşadığımız evi nəzərdə tutub deyirdi ki, "Şəhla, evin ikinci mərtəbəsini tikərik, Ərtoğrula toy edəndən sonra orada yaşayarlar". Beləcə, biz qocalığımızın xəyallarını qururduq. Amma onların heç biri qismətimiz olmadı. Nə arzu qurmuşduqsa, hamısı yanıb külə döndü...

Şəhidliyin uca zirvə olduğunu bilirəm. Kamran bizim qürurumuz, adı başımızın tacıdır, amma kaş ki, sağ qalaydı, arxa-dayağım olaydı. Övladlarımızı birlikdə boya-başa çatdıraydıq. İndi həyatda tək istəyim uşaqlarımızı Kamranın arzularındakı kimi böyütməkdir, başqa heç nə...

### "Ata, sənin üçün çox darıxıram"



Zəfər döyüşçüsü Kamran Kazımov ömrünün bahar çağında həyatla vidalaşdı. Kamran üçün hər şeydən öncə Vətən gəldi. Ana torpaq uğrunda döyüşlərdə mərdliklə vuruşaraq şəhadət zirvəsinə yüksəldi. Onun 30 illik qısa ömür salnaməsinə həm qəhrəmanlıqlarla dolu şanlı səhifələr, həm də qüssəli tale yazıldı.

Kamrandan sonra onun yoxluğu doğmalarının - atası Qurbanəlinin, anası Elmiranın, qardaşı Orxanın, bacısı Xəyalənin ürəyində silinməz dağa çevrildi...

Kamransızlığın ən böyük ağrı-acısı - ömür-gün yoldaşı Şəhlanın, övladları Aydanın, Ərtoğrulun, Kamrananın qəlbində əbədi yuva qurdu. Gözlərini yaşlı, könüllərini pərişan qoydu...

Böyüyəndə polis olmaq istəyən Aydan söylədi ki, "atam evdə olanda həmişə onunla oyunlar oynayırdıq. Ən çox yadımda qalan stəkana su doldurub bir-birimizin üzərinə atmağımızdı. O, məni qucağına alıb dolabın başına qoyurdu, belə əyləncəli oyunlar oynayırdıq..." Ancaq göz yaşları atasıyla bağlı şirin xatirələrinin arxasını gətirməyə 11 yaşlı Aydana imkan vermədi... Hıçqırıqlar içərisində təkcə onu pıçıldaya bildi ki, "ata, mən səndən ötrü çox darıxıram".

9 yaşlı Ərtoğrul isə söylədi ki, "atam məni futbola hazırlaşdırırdı. Stadionda gəlib məşqlərimə baxırdı. İndi onu yuxularımda görürəm. Həmişə də bir yerdə oyun oynayırıq..." Ağlayır...

Nə yazıq ki o an bu ürəyiyaralı körpələrə təskinlik verməyə söz tapmırıq... Qəhərdən susuruq... Sadəcə düşünürük ki, indi bizim hiss etdiyimiz bu ürəkparçalayan halı anaları Şəhla xanım gündə bəlkə də onlarca dəfə yaşayır...

Biixtiyar başımızı qaldırıb qəhrəman Kamran Kazımovun divarda ailəsinin başı üzərində asılmış və sanki onlara "mən hər an sizinlə birlikdəyəm" deyircəsinə baxan və qürur həkk olunmuş fotosuna baxırıq...

*Yasəmən MUSAYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# REGİONLAR

# İşğaldan qurtulan yurdumuz aydınlığa çıxır

## Cəbrayıl, Zəngilan, Füzuli şəhərlərində etibarlı su təsərrüfatı sistemi qurulur

**İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi istiqamətində görülən işlər səngimir. Ermənilərin 30 il ərzində xaraba qoyduqları, yağmaladıqları Qarabağ və Şərqi Zəngəzur gözümüzün qarşısında yenidən qurulur, ilbəil, aybaay deyil, günbəgün simasını dəyişir. İndi bu ərazilərdən tankların, PDM-lərin yox, tikinti texnikalarının səsi kəsilmir.**



Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi də bu quruculuq işlərindən kənarda qalmır. Agentlik bu gün Şərqi Zəngəzur və Qarabağda su təsərrüfatı sahəsində irimiqyaslı işlər həyata keçirir, regionun keyfiyyətli, dayanıqlı içməli su ilə təmin olunması üçün təxirəsalınmaz bərpa və tikinti işləri aparır.

Cəbrayıl şəhərinin agentliyin sifarişi ilə icra olunan su təchizatı və kanalizasiya sistemlərinin tikintisi layihəsi 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla 15 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Xatırladaq ki, şəhərdə ötən il geoloji kəşfiyyat quyusu qazılıb. Ümidlər doğrulub - seçilmiş mənbənin məhsuldarlığı və suyun keyfiyyət göstəriciləri şəhəri və ətraf kəndləri içməli su ilə təmin etməyə imkan verir.

Cəbrayıl şəhərinin şimalında ümumilikdə 9 subartezian quyusunun qazılması layihələndirilib və artıq bu istiqamətdə işlərə başlanılıb. İlkin mərhələdə 3 quyu qazılacaq. Cəbrayıl şəhər ərazisində isə 3 artezian quyusunun birinci mərhələsində qazıntı işləri nəzərdə tutulub. Məhsuldarlığı saniyədə 12 litr olan quyulardan biri - 6 saylı subartezian quyusunun idarəetmə otağı istifadəyə verilib. Agentlikdən bildirirlər ki, şəhərdə məskunlaşacaq əhalinin sayı artdıqca yeni quyular da qazılacaq.

Qarabağ Regional Sukanal İdarəsinin rəis müavini Oqtay Həziyevin dediyinə görə, ərazidə hər birinin tutumu 1000 kubmetr olan 2 anbar tikilir. İlk anbar test sınağından keçirilərək istismara verilib. Üstəlik, şəhərin çıxışından 600 diametrlik boru ilə 5300 metr məsafədə kanalizasiya xətti çəkilib. İkinci anbarın isə 1000 kubmetr hissəsinin dəmir-beton işləri yekunlaşıb. Hazırda izoliyasiya işləri görülür. Siyirtmə kamerasında və gözətçi otağında da işlər tamamlanıb. 280 diametrlik boru ilə şəhərin giriş nöqtəsinə qədər olan 1177 metr magistral xətt də tam hazırdır.

Bunlardan əlavə, ərazidə müasir standartlara cavab verən modul tipli tullantı sutəmizləyici qurğu quraşdırılıb. Görülən işlər zəmanət verir ki, Cəbrayıla köçürülən sakinlər fasiləsiz, dayanıqlı və keyfiyyətli içməli su ilə təmin olunsunlar.

Zəngilan şəhərində də 2020-ci il oktyabr ayından sakinlərin məskunlaşdığı ərazilər, o cümlədən idarə və təşkilatlar, mənzillər, fərdi yaşayış evləri 24 saat su ilə təmin olunur. Agentliyin Qarabağ Regional Su İdarəsinin Zəngilan Sukanal Sahəsinin sahə rəisi Rəşad Sadıqlının sözlərinə görə, layihəyə əsasən, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən Zəngilan şəhərinə fasiləsiz və dayanıqlı suyun verilməsi məqsədilə hər birinin tutumu 4000 kubmetr olmaqla 2 su anbarı inşa olunur. Bundan savayı, hər birinin tutumu 100 kubmetr olmaqla 2 su anbarı da tikiləcək. Layihə çərçivəsində həmçinin yağış sularının idarə olunması üçün bir kilometrlik yağış su xəttinin çəkilməsi nəzərdə tutulur.

Paralel olaraq perspektiv plana uyğun 9 subartezian quyusunun və nasosxananın inşası planlaşdırılır. Layihə çərçivəsində 9 kilometrlik məsafədən çəkilən çirkli su kollektor xəttinin tikintisi isə yekunlaşmaq üzrədir - işlərin artıq 83 faizi tamamlanıb. Tamamlanan 2046 metr magistral su xəttindən 1352, artezianlararası 1837 metr su xəttindən 1143 metr xətlərin çəkilməsidir.

Analoji işlər Füzuli şəhərində də aparılır. Hazırda şəhərdə 648 ailə məskunlaşıb. Əhalinin, eləcə də dövlət və özəl sektora aid binaların və obyektlərin içməli su ilə təmin edilməsi üçün layihələr həyata keçirilir, o cümlədən hər birinin tutumu 8500 və 2500 kubmetr olan 4 su anbarı inşa edilir. Anbarların idarəetmə və gözətçi otaqlarının tikinti-quraşdırma işləri artıq yekunlaşıb.

Füzuli Sukanal Sahəsinin rəisi Vüqar Sərkərli bildirib ki, Gövşad kəndindəki mənbədən müvəqqəti olaraq 100 kubmetrlik anbara su vurulur və oradan Füzuli şəhərinə su verilir. Sahə rəisinin sözlərinə görə, şəhər 24 saatlıq dayanıqlı içməli su ilə təmin olunur.

Ərazidə tikilən 17 min və 2500 kubmetrlik anbarlarda da işlər yekunlaşmaq üzrədir. Artıq layihə çərçivəsində Füzuli şəhərində 10330 metr magistral su xətti, 5807 metr artezianlar və anbarlararası su xətti, tullantı su təmizləyici qurğu, 1816 metrlik kanalizasiya kollektoru inşa olunub. Bundan əlavə, 15 subartezian quyusunun qazıntı işləri də yekunlaşıb.

Gələcək perspektivi nəzərə alaraq əminliklə demək olar ki, Füzuli şəhərinin sakinləri su təminatında heç bir problem yaşamayacaqlar. Hər bir sakin keyfiyyətli içməli su ilə təmin olunacaq.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Vətənpərvərlik milli-mənəvi dəyərimizdir

**Göygöldə rayon icra hakimiyyətinin təşkilatçılığı ilə gənclər üçün "Vətənpərvərlik milli-mənəvi dəyərimizdir" mövzusunda tədbir keçirilmişdir.**



Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra çıxış edən rayon icra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Kəmalə İbrahimova diqqətə çatdırmışdır ki, vətənpərvərlik böyük məfhumdur və milli-mənəvi dəyərlərimizin əsasını təşkil edir. Bu, sadəcə orduda xidmət deyil, vətəni sevmək, torpağa bağlı olmaq deməkdir. Vətənpərvər övladların yetişdirilməsi ilk növbədə ailədən başlayır.

Sonra Göygöl Gənclər Evinin direktoru Şəhriyar İsmayılzadə mövzu ilə bağlı fikirlərini bölüşmüş və belə tədbirlərin davamlı olmasının əhəmiyyətindən danışmışdır. Çıxış edən digər natiqlər isə qeyd etmişlər ki, müasir gənclər intellektual səviyyəli, yaradıcı, XXI əsrin çağırışlarına cavab verən və soykökünə bağlı olmalıdırlar. Ona görə də gənclərimiz ayıq-sayıq olmalı, gənclərin milli-mənəvi şüuruna mənfi təsir edən təbliğata uymamalıdırlar.

Tədbirin sonunda vətənpərvərlik mövzusuna həsr edilmiş videoçarx nümayiş olunmuşdur.

# Goranboy ağsaqqalları və gəncləri bir araya gəldilər

**Goranboyda rayon icra hakimiyyətinin təşkilatçılığı ilə ağsaqqallarla gənclərin görüşü təşkil olunmuşdur.**



Görüşdə YAP-ın və rayon Ağsaqqallar Şurasının üzvləri, Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsi Goranboy nümayəndəliyinin əməkdaşları, Gənclər Evinin və rayonda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının rəhbərləri iştirak etmişlər.

Tədbir başlamazdan əvvəl Ümummilli Liderin ağsaqqallar və gənclərə olan qayğısından bəhs edən videoçarx nümayiş olunmuşdur. Görüşü giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev isə Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə həyata keçirilən dövlət siyasətindən danışmışdır.

Sonra söz ağsaqqallara verilmişdir. Onlar qarşılıqlı fikir mübadiləsi aparmış və gəncləri maraqlandıran sualları cavablandırmışlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Cəlilabadda ilin sonuncu toxum sərgi-satış yarmarkası keçirilib

**Cəlilabadda Kənd Təsərrüfatı Nazirliyi Aqrar İnnovasiya Mərkəzinin, Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı, rayon icra hakimiyyətinin dəstəyi ilə növbəti Aqrar Biznes Festivalı və mövsümün sonuncu toxum sərgi-satış yarmarkası keçirilib.**



Cəlilabadla yanaşı, qonşu Masallı, Lənkəran, Astara, Lerik və Yardımlıdan olan fermerlərin, toxum istehsalçılarının iştirak etdikləri yarmarkada özəl şirkətlər müxtəlif innovativ məhsul və texnologiyalarını nümayiş etdiriblər.

Festival zamanı toxumçuluq fəaliyyəti ilə məşğul olan fermerlərə Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi tərəfindən "Sertifikatlı toxumların əhəmiyyəti" mövzusunda təlim keçirilib, müzakirələr aparılıb, fermerləri maraqlandıran suallar ətraflı cavablandırılıb, müvafiq məsləhət və tövsiyələr verilib. Fermerlərə həmçinin sertifikatlı toxumun əldə olunması, sortların regionların torpaq-iqlim xüsusiyyətlərinə uyğun düzgün seçilməsi, toxumların təmizlənməsi, kondisiyaya çatdırılması barədə ətraflı məlumat verilib və toxumçuluğa dair müxtəlif mövzularda təlimlər keçirilib.

*"Azərbaycan"*

# Şirvanda orta aylıq əməkhaqqı 9,1 faiz artıb

**Şirvanda cari ilin 9 ayı ərzində şəhərin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlər müzakirə olunub.**

Şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edərək ölkəmizin hər yerində olduğu kimi, Şirvanda da ictimai-siyasi sabitliyin daha da möhkəmləndiyini, şəhərdə irimiqyaslı abadlıq-quruculuq işlərinin aparıldığını, "Yeni Şirvan" yaşayış kompleksinin tikintisini, su-kanalizasiya sisteminin yenidən qurulmasını, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində silsilə tədbirlərin, ağacəkmə aksiyalarının keçirilməsini qeyd edib. Bildirilib ki, ölkədə aparılan islahatlar Şirvanın iqtisadiyyatında da əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olub, dinamik iqtisadi inkişaf təmin edilib. Belə ki, şəhərdə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 2024-cü ilin 9 ayı ərzində 511 milyon 86,4 min manatlıq məhsul istehsal edilib və xidmətlər göstərilib. Sənaye məhsullarının 56 faizi



dövlət, 44 faizi qeyri-dövlət müəssisə və təşkilatları tərəfindən istehsal olunub. Qeyd edilib ki, bu dövr şəhərdə 163 min ton əmtəəlik neft, 3,6 milyon kubmetr əmtəəlik qaz və 4 milyard 163,2 milyon kilovavt/saat elektrik enerjisi istehsal olunub. Keçən ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 6,9, sərnişin daşınması 8,5 faiz artıb. Artım həmçinin pərakəndə ticarət dövriyyəsinin və ödənişli xidmətlərin həcmində qeydə alınıb. Şirvan şəhərində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 850,9 manata çatıb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,1 faiz çoxdur.

Şəhər icra hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva hesabat dövründə keçirilmiş ictimai-siyasi və digər tədbirlər barədə məlumat verib. Bildirib ki, Ümummilli Lider Heydər Əliyev ideyalarının gənclər arasında təbliği, yeni nəslin vətənpərvərlik, azərbaycançılıq və müstəqil dövlətçilik prinsipləri əsasında formalaşdırılması, tarixi-mədəni irsimizə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə edilməsi, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda rolunun artırılması, onların intellektual və yaradıcı potensialının ümummilli məsələlərin həllinə yönəldilməsi işləri davam etdirilib. Qeyd edib ki, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində təbiətin qorunmasına töhfə vermək, ətraf mühiti sağlamlaşdırmaq, yaşıllıqların artırılması, ekoloji tarazlığın bərpa edilməsinə kömək göstərilməsi məqsədi ilə ağacəkmə aksiyaları və iməciliklər təşkil olunub.

Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar Şaiq Şıxəliyev isə çıxışında şəhərdə görülmüş abadlıq-quruculuq, su-kanalizasiya sisteminin yenidən qurulması, küçələrin işıqlandırılması, asfalt-beton örtüyünün vurulması, Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyindəki "MİDA" MMC tərəfindən "Yeni Şirvan" yaşayış kompleksinin tikintisi, IDEA İB-nin "Bizim həyət" layihəsi çərçivəsində yeni "Abad məhəllə"lərin və yaşıllıqların salınmasından danışıb. Eyni zamanda bildirib ki, yaxın zamanda İsmət Qayıbov adına Mədəniyyət və İstirahət parkında əsaslı yenidənqurma işləri aparılacaq, Kür çayı sahilində bulvar salınacaq.

Sonra hesabat ətrafında müzakirələr aparılıb, aidiyyəti idarə və müəssisələrin rəhbərləri çıxış edərək görülən işlər və çətinliklər barədə məlumat veriblər.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Payız həm də əkin mövsümüdür

## Biləsuvarlı fermerlər taxıl səpinini sürətləndirirlər

**Payızdır - barlı-bəhərli payız. İndi həm də kənd adamlarının üzünün güldüyü, eyninin açıldığı fəsildir. Məhsul yığımı dövrüdür axı...**

Pambıq tarlaları da səs-küylüdür. Yaşıl rəngli "Conder" markalı maşınlar dayanmaq bilmədən işləyir, qoşqulu traktorlar yığılan pambığı tədarük məntəqələrinə daşıyır. Lakin sahələrdə iş bununla bitmir. Payız həm də əkin fəsli olduğundan fermerlər bu işi də optimal müddətdə başa çatdırmağa çalışırlar. Bir tərəfdə şum qaldırılır, digər tərəfdə torpağa mala çəkilir, başqa bir tərəfdə isə toxum səpilir.

Kənd təsərrüfatında bütün işlər kimi, taxıl səpini də böyük diqqət tələb edir. Gərək şumdan tutmuş məhsul yığımınadək hər bir aqrotexniki tədbiri vaxtında və keyfiyyətlə görəsən. Biləsuvar rayonunun fermerləri bu işdə zəngin təcrübəyə malikdirlər. Cari il biləsuvarlılar 32 min 324 hektar sahənin hər hektarından 28 sentner arpa və 32,2 sentner buğda biçmişlər. Muğan şəraiti üçün bunlar yaxşı göstərici hesab olunur. Taxıl əkən fermerlər hazırda gələn ilin məhsulunun əsasını qoyurlar. Onlar hələ yay aylarında kifayət qədər yüksək



reproduksiyalı elit toxum tədarük etmişlər. Bunun üçün heç də uzağa getməmişlər. Payondakı toxumçuluq təsərrüfatları onlara yaxından kömək göstərmişlər.

Rayon üzrə gələn ilin məhsulu üçün təxminən keçən ildəki qədər, yəni 32 min hektarda arpa və buğda əkilməsi nəzərdə tutulur. Artıq 5 min hektarda "Cəlilabad-19", "Qarabağ-22", "Dəyanətli" sortlarından olan arpa toxumu səpilmişdir. Əkinə 204 şum traktoru, 86 toxumsəpən aqreqat, 87 mala və 116 kotan cəlb edilmişdir. Texnikalar vaxtında saz hala gətirildiyindən iş prosesində, demək olar ki, ləngimələr yoxdur.

Biləsuvarda təcrübəli, işgüzar fermerlər çoxdur. Onlardan biri də Lətif Cəfərovdur. Yaşının 85-i keçməsinə baxmayaraq, cavanlardan heç də geri qalmır. Lətif kişi deyir ki, ağlı kəsəndən kənd təsərrüfatı sahəsində çalışır. Kolxoz zamanı uzun müddət aqronom, briqadir vəzifələrində çalışıb. Odur ki, yüksək məhsul götürməyin şərtlərini bilir. Bilir ki, növbəli əkinin tətbiqi, məhsuldar və sağlam toxum əkilməsi, aqrotexniki tədbirlərin düzgün aparılması, gübrələrin normada nəzərdə tutulduğu qədər verilməsi, suvarmanın, alaq otlarına və ziyanvericilərə qarşı mübarizə tədbirlərinin vaxtında həyata keçirilməsi bol məhsulun qaçılmaz tələbləridir. Elə ona görədir ki, bu qocaman fermer oğlanlarının köməyi ilə əkib-becərdiyi taxıl və pambıq sahələrindən hər il yüksək məhsul əldə edir.

*S.CAVADOV,*
*"Azərbaycan"*

# Lənkəran şəhərinin küçələri daxili imkanlar hesabına təmir edilir

**Lənkəranda şəhər yollarının abadlaşdırılması daim diqqətdə saxlanır, təmirə ehtiyacı olan küçələr ayrılmış büdcəyə uyğun növbəlilik əsasında təmir edilir.**

İlin sonunadək 11 küçənin asfaltlanması nəzərdə tutulur. Bunlar şəhidlər Elşad Zeynallı, Orxan Quluzadə, Emil Qurbanov, Hamid Əskərov, Elnur Talıbov və Ehtiram Hüseynovun adlarına olan, eləcə də 20 Yanvar, Mirmustafaxan və Əli Məmmədov küçələridir. Artıq bir neçə küçənin asfaltlanması yekunlaşıb. Tezliklə adları qeyd olunan digər küçələrdə də təmir işlərinə başlanacaq.

# 5 gündə 9 min ağac və gül kolu əkilib

**Samuxun Ziyadlı kəndinin inzibati ərazisində və Samux-Kür yolunun kənarında ağacəkmə aksiyası keçirilib.**

Rayon rəhbərliyinin, şəhid ailələrinin, qazilərin, idarə, müəssisə və təşkilatların, eləcə də gənc könüllülərin iştirakı ilə keçirilən aksiya zamanı yerli iqlim şəraitinə uyğun xan çinarlar, şam, sərv ağacları və digər bəzək kolları əkilmişdir. Aksiya çərçivəsində həmçinin əvvəl əkilən ağac tinglərinə aqrotexniki qulluq göstərilmiş, suvarılması təmin edilmişdir.

Qeyd edək ki, son 5 gün ərzində Samux rayonunda 9 mindən çox xan çinarı, şam, sərv ağaclarının tingləri və gül kolları əkilmişdir. Əkilən ağacların suvarılması üçün damcılı suvarma sistemi qurulmuşdur. Kampaniya başa çatanadək rayon üzrə 20 hektar ərazidə 12 minədək tingin əkilməsi nəzərdə tutulur.

*"Azərbaycan"*




**Qırmızı terror**

**Azərbaycan xalqı minilliklərlə ölçülən böyük bir tarixi yol keçib. Bu yolun sınaqları da, nailiyyətləri də çox olub. Taleyimizə minnətdarıq ki, bu tarix heç bir mərhələsində bizi ömrünü də, zəkasını da, maddi imkanlarını da inkişafımız naminə səxavətlə sərf edən şəxsiyyətlərdən heç zaman xali etməyib. Belə ziyalı şəxsiyyətlərimizdən biri də bu il anadan olmasının 140-cı ildönümü tamamlanan Salman Mümtazdır.**

# Taleyin seçdiyi Salman Mümtaz

## O, xüsusi orqanların daim izlədiyi adam idi

O, zəmanəsinin parlaq şairlərindən olduğu qədər də, görkəmli ədəbiyyatşünas, mətnşünas və biblioqraf, Orta əsr əlyazmalarının kolleksiyaçısı kimi tanınırdı. Bu istiqamətlərdəki xidmətlərinin hər biri bu insanın ictimai fikir tariximizdə əbədi xatırlanması üçün yetərlidir.

Salman Mümtaz həm də repressiya qurbanlarından idi. Xüsusi orqanlar tərəfindən daim izlənirdi.

### Ədəbiyyat tariximizin fədakar tədqiqatçısı

Salman Məmmədəmin oğlu Əsgərov 1884-cü ildə Şəki şəhərində dünyaya gəlmişdi. Atasının işi ilə əlaqədar uzun illər ailələri Aşqabadda yaşamış, orta təhsilini bu şəhərdə almışdı. Fars, ərəb, urdu dillərini mükəmməl öyrənmişdi. Məktəb illərində rus dilinə də eyni mükəmməlliklə yiyələnmişdi.

1893-cü ildə - hələ 9 yaşında ikən Salman həmin vaxt Aşqabadda olan Mirzə Ələkbər Sabirlə görüşür. Bu görüş onda ədəbiyyata böyük maraq yaradır. O, xüsusilə klassik şairlərin şeirlərini çox sevir, güclü hafizəsi sayəsində onları əzbərləyirdi. Özü də Mümtaz təxəllüsü ilə ara-sıra şeirlər yazırdı. Mümtaz ərəbcədən tərcümədə "seçilmiş", "fərqlənən" demək idi. Tale onu sanki mənsub olduğu xalqın ictimai fikir tarixinə xidmət üçün seçmişdi.

1906-cı ildə Tiflisdə "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması Salman Mümtazın həyatında çox böyük dəyişiklik yaradır. O, jurnalda yazılarla çıxış etməyə başlayır. Aşqabadda özü kimi ədəbiyyata maraq göstərən gənc dostları ilə birgə ədəbi məclis yaradır. 1908-ci ildə onun Əbdürrəhim bəy Haqverdiyev və Qurbanəli Şərifzadə ilə birgə yazdığı "Mozalan bəyin səyahətnaməsi" əsəri "Molla Nəsrəddin" jurnalında işıq üzü görür və çox böyük maraqla qarşılanır. 1910-cu ildə Mirzə Ələkbər Sabirlə keçirdiyi ikihəftəlik ikinci görüş Salman Mümtazın ədəbiyyata bağlılığını daha da gücləndirir. Sabirin tövsiyəsi ilə gənc yazar "Molla Nəsrəddin" jurnalında əsərlərini "Xortdan bəy" təxəllüsü ilə dərc etdirməyə başlayır.

Tiflisdə Cəlil Məmmədquluzadənin Ömər Faiq Nemanzadə ilə birgə yaratdığı "Qeyrət" mətbəəsində 1913-cü ildə onun ilk kitabı nəşr olunur. Kitab "Seyid Əhməd Hatif İsfahaninin tərcibəndi və tərcümeyi-halı" adlanırdı.

Salman Mümtaz o dövrdə Azərbaycanda sürətlə inkişaf edən teatr fəaliyyətinə də maraq göstərir. 1916-cı ildə Aşqabadda Cəlil Məmmədquluzadənin "Ölülər" əsərini dostları ilə birgə səhnələşdirmək istəyir. Amma yerli hakimiyyət buna mane olur.

1918-ci ildə gənc yazar ailəsi ilə birlikdə Bakıya köçür. Onda Azərbaycan Xalq Cümhuriyyəti yeni qurulmuş, cümhuriyyətin rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzeti də yenicə nəşrə başlamışdı. Salman Mümtaz "Azərbaycan" qəzeti ilə əməkdaşlıq edir, jurnalistlik fəaliyyəti ilə yanaşı, Azərbaycan klassiklərinin əlyazmaları ilə ciddi şəkildə maraqlanır və onları toplamağa başlayır.

S.Mümtaz Bakıya gəldiyi ilk aylarda Qafqaz İslam Ordusunun əsgər və zabitləri hələ burada idilər. Onun Qafqaz İslam Ordusunun komandanı Nuru paşaya, Osmanlı İmperiyasının hərbi naziri Ənvər paşaya böyük sevgisi vardı. 1918-ci ildə Salmanın Nuru paşa ilə görüşü olur. Şair onun şərəfinə "Öyün, millət!" adlı qəzəl yazır.

### Axtarışlar, tapıntılar

1920-ci ildə o, Azərbaycan ədəbiyyatının bərpası üzrə komissiyanın təşkilatçısı və sədri kimi fəaliyyət göstərməyə başlayır. Qısa bir dövrdə Xalq Maarif Komissarlığında işləyir. Amma hansı işlə məşğul olursa-olsun, Azərbaycan ədəbiyyatı nümunələrinin toplanmasını, tədqiqini, dəqiqləşdirilməsini, nəşrini və yayılmasını diqqətdən kənarda qoymur. Azərbaycan şairlərinin və aşıqlarının əsərlərinin naməlum əlyazma nümunələrini üzə çıxarır.

1920-1925-ci illərdə Salman Mümtaz Azərbaycan ədəbiyyatı və incəsənəti ilə bağlı 200-dən çox kitab, məqalə və əlyazma toplamışdı. O, əldə etdiyi qiymətli xəzinənin incilərini o vaxt yeni nəşrə başlamış "Kommunist" qəzetində "Unudulmuş yarpaqlar" rubrikası altında məqalələrlə təqdim edirdi.






Bu fəaliyyəti ilə Salman Mümtaz Azərbaycan ədəbiyyatına dair 15, xalq ədəbiyyatına aid 2 əsəri, eləcə də Məhəmməd Füzulinin üç cilddə əsərlərini, "250 şair" toplusunu, "Xətai" divanı və digər əsərlərini oxuculara təqdim etmişdi. 1925-1926-cı illərdə İmadəddin Nəsimi, Qövsi Təbrizi, Nişat Şirvani, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh də daxil olmaqla, 24 şairin ilk toplu nəşrinin təqdim olunması məhz Salman Mümtazın fədakar əməyinin nəticəsidir.

Onun nəşrə hazırladığı "Qövsi Təbrizi" (1925), "Qasım bəy Zakir" (1925, 1936), "Molla Pənah Vaqif" (1925, 1937), "Nəsimi" (1926), "Mirzə Şəfi Vazeh" (1926), "Vidadi" (1936) və s. adlı kitablar bu şairlər barədə nəşr edilmiş ilk külliyatlar idi. Salman Mümtaz aşıq poeziyasına həsr olunmuş "El şairləri" kitabını və Sarı Aşığın bayatılarını da nəşr etdirmiş, bu kitabların hər biri sonralar təkrar-təkrar buraxılmışdır.

### Ədəbiyyat tariximizdə bir ilk

1921-ci ildə Salman Mümtaz ədəbiyyat tariximizdə ilk dəfə olaraq Azərbaycan şairi Həbibinin həyat və yaradıcılığı ilə bağlı faktları təqdim etmişdi. Həbibi haqqında farsdilli mənbələrdə olan məlumatları Azərbaycan dilinə köçürmüş və məqaləsinə şairin məşhur qəzəllərindən birini və Füzulinin onun bu şeirinə yazdığı təxmisi də daxil etmişdi. Görkəmli ədəbiyyat nəzəriyyəçisi ilk dəfə olaraq Həbibinin doğum tarixi haqqında da məlumat vermişdi.

Salman Mümtaz 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın iştirakçılarından idi. O, qurultayda "Nəsimi" adlı yeni kitabını təqdim edir. Birinci Türkoloji Qurultay ona akademik Mehmed Fuad Köprülüzadə, "Füyuzat" jurnalının yaradıcısı Əli bəy Hüseynzadə, tatar ədəbiyyatçısı Əziz Qubaydulin, tanınmış şərqşünaslar Vasili Bartold, Sergey Oldenburq və başqa ziyalılarla tanışlıq, ünsiyyət imkanı yaradır. Salman Mümtaz topladığı əlyazmaları "Kitabxaneyi-Mümtaziyyə" adlandırdığı şəxsi kitabxanasında qoruyurdu, Bartoldla Oldenburq qurultayda iştirak edərkən onun şəxsi kitabxanası ilə də tanış olur, buradakı əlyazmaların zənginliyinə və elmi tərtibatına heyranlıqlarını gizlədə bilmirlər.

Onu da qeyd edək ki, Salman Mümtaz bu fonddakı əsərləri toplamaqdan ötrü böyük bir coğrafiyanı dolaşmışdı. Bakıdan Qaxa, Dərbənddən Lənkərana, Qazaxdan Qubaya, Şəkidən Astaraya kimi əlyazmaların axtarışında olmuş, hətta bir çox qədim kitab üçün Dağıstana, Gürcüstana, Ermənistana, Rusiyaya, Orta Asiya ölkələrinə getmişdi. Görkəmli tədqiqatçı İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" əsərinin sorağı ilə Vladiqafqaza səfər etmişdi. O, əlyazmaları bəzən qızıl pulla alırdı.

Salman Mümtaz çox böyük əziyyətlə topladığı əlyazmalardan misilsiz və geniş bir kitabxana yaratmışdı. "Kitabi-Dədə Qorqud" eposunun Vatikan və Drezden şəhərlərində olan nüsxələrindən sonra üçüncü nüsxəsi, Məhəmməd Füzulinin divanının dünyada ən qədim və ən mükəmməl əlyazması, Şah İsmayıl Xətainin "Dəhnamə" və "Nəsihətnamə" əsərlərinin elm üçün anlaşılan ilk nüsxələri, Azərbaycanın yüzlərlə məşhur, qüdrətli şairlərinin 23 əlyazması yalnız onun kitabxanasında toplanmışdı. Tədqiqatçılar zənginliyinə görə Salman Mümtazın kitabxanasını təkcə Əbdülqəni Nuxəvi Xalisəqarızadə və Məhəmmədəli Tərbiyət kimi ədiblərin şəxsi kitabxanaları ilə müqayisə edirlər. Salman Mümtazın kitabxanasının əsas üstünlüyü onda idi ki, buradakı əlyazmaların əksəriyyəti türk dilində idi.

### Qırmızı terrorun daha bir qurbanı

Görkəmli tədqiqatçı alim 1929-1932-ci illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun Kapitalizmə qədərki Azərbaycan ədəbiyyatı bölməsinin müdiri, 1932-ci ildən isə Azərbaycan Dövlət Muzeyinin elmi işçisi kimi çalışır. 1933-1936-cı illərdə "Azərnəşr"də Klassik irs şöbəsinə rəhbərlik edir. 1933-cü ilin fevralından SSRİ EA Azərbaycan filialının Ədəbi irs bölməsinin elmi işçisi, 1937-ci ilin aprelindən isə filialın Ədəbiyyat şöbəsinin rəhbəri olur. 1934-cü ildə o, SSRİ yazıçılarının Moskvada keçirilən birinci qurultayında iştirak edir. Həmçinin Firdovsinin 1000 illik yubiley tədbirində də Azərbaycan nümayəndə heyətinin tərkibində təmsil olunur.

Əfsuslar olsun ki, 1937-ci ilin repressiya burulğanı belə bir ziyalının da taleyini qaraldır. Həmin ilin iyununda "ideoloji səhvlər" bəhanəsi ilə onu Azərbaycan Yazıçılar Birliyindən çıxarırlar. Salman Mümtaz tezliklə bütün digər vəzifələrindən də azad edilir. 8 oktyabr 1937-ci ildə isə Bakıdakı evində həbs olunur.

Ona qarşı müxtəlif ittihamlar irəli sürürlər. Həmin dövrdə Salman Mümtaz "Azərbaycanın milliyyətçilik dastanı" kimi göstərilən "Koroğlu" üzərində işləyirdi. Bir qədər əvvəl isə Mahmud Kaşğarinin "Divanı"nın nəşrə hazırlanmasında fəal iştirak etmişdi. Ona qarşı əsas ittihamlar əks-inqilabi millətçi mövqedə dayanması, pantürkist fikirləri ilə bağlı idi. Salman Mümtaz bu iddiaları rədd etsə də, qırmızı terroru həyata keçirən cəlladlar ondan əl çəkmədilər. Azərbaycanın görkəmli ziyalısına Sinman, Qalstyan, Avanesyan və Borşev tərəfindən 3 ay dəhşətli işgəncələr verildi. 7 dekabr 1937-ci ildə Qalstyan Salman Mümtazın işi üzrə istintaqı bitirir. Dekabrın 8-də kapitan Avanesyan onun ittiham aktını təqdim edir. Bu ittihamda qeyd olunur ki, Salman Məmmədəmin oğlu Əsgərov Azərbaycan əks-inqilabi burjua təşkilatının üzvüdür. O, Azərbaycan Sovet Respublikasını SSRİ-dən ayırmağa çalışan və 1936-cı ildə Elmlər Akademiyasında əsası qoyulan əks-inqilabçı pantürkist mərkəzinin fəal üzvüdür. O, akademiyada fəal əks-inqilabi işlər aparmışdır. Ona görə də S.Mümtaz Azərbaycan SSR Cinayət Məcəlləsinin 69, 70, 72, 73-cü maddələri ilə təqsirli bilinmişdir.

Bir faktı qeyd edək ki, 1926-cı ildə keçirilən I Türkoloji Qurultayın vahid türk əlifbası və imlası barəsindəki qərarlarını, həmçinin yaranmaqda olan türk mənəvi birliyini aradan götürmək məqsədilə qurultayın demək olar ki, bütün iştirakçıları "pantürkist", "millətçi", "əks-inqilabçı" elan edildi, repressiyaya məruz qalaraq qətlə yetirildi. Türk adı qadağan edildi. Tarixin tam öyrənilməməsi üçün qədim türk əlyazmaları və ərəb əlifbasında qələmə alınmış bütün kitablar yandırıldı. Salman Mümtaz və onun kitabxanası da bu siyasətin qurbanı oldu. 1937-ci ilin oktyabrında Mümtaz NKVD əməkdaşları tərəfindən həbs edilərkən onun iki böyük maşına yüklənmiş əlyazmalarının hamısı müsadirə edildi.

Hərbi kollegiyanın cəmi 30 dəqiqə çəkən iclasında ömrü ilə əsrlərə işıq salan ziyalı 10 il azadlıqdan, 5 il bütün siyasi hüquqlarından məhrum edildi. Məhkəmə onun bütün əmlakının müsadirə olunmasına qərar çıxardı. O, 24 fevral 1938-ci ildə Sol-İletsk həbsxanasına, daha sonra Oryol şəhərinə cəza çəkmək üçün göndərildi.

Salman Mümtazın ölümü ilə bağlı iki fərziyyə var. Bunlardan biri onun Oryol həbsxanalarındakı başqa siyasi dustaqlarla birgə 6 sentyabr 1941-ci ildə güllələnməsi ilə bağlıdır. Digər mənbələrdə isə görkəmli ziyalımızın həbsdə xəstəliyə tutularaq vəfat etdiyi göstərilir.

Uzun illərdən sonra isə haqq öz yerini tutur, 16 noyabr 1956-cı ildə SSRİ Ali Məhkəməsi tərəfindən onun haqqında yazılan ittihamnamə ləğv edilir, 17 noyabr 1956-cı ildə Salman Mümtaza bəraət verilir. Amma bu, artıq sadəcə təsəlli idi. Xalqın keçmişi ilə bu günü və gələcəyi arasında bağ yaradan işıqlı ömür bir daha geri dönməyəcəkdi.

"Qırmızı terror"un ən böyük zərbəsi həm də Salman Mümtazın illərin əziyyəti hesabına topladığı xəzinəyə dəydi. Bəzi mənbələrə görə, onun həbsindən sonra kitabxanasındakı 270 əlyazma məhv edildi. Onun topladığı əlyazmaların bir qismini də başqaları ələ keçirib öz adlarından təqdim etməyə başladılar. Bütün bunlar Mümtazın ədəbiyyatımıza verdiyi qiymətli töhfələrin itirilməsinə, onun misilsiz irsinin gələcək nəsillərə çatdırılmasına müəyyən çətinliklər yaratsa da, xalq üçün yanan işıq heç zaman itmir. Necə ki Salman Mümtaz adı indi də şam kimi alovlanır, keçmişdən bu günə, bu gündən gələcəyə nur saçır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Burulğan: yaddaşın mühakiməsi

"Azərbaycan xalqının həqiqi faciəsi isə 1936-cı ildən başlandı. Xalq əleyhinə, xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri 1937-1938-ci illərdə daha da amansızlaşdı, hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi görünməmiş vəhşiliklə Sumbatovun, Borşevin, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Avanesyanın və qeyrilərinin əli ilə təxminən 70-80 min Azərbaycan ziyalı nümayəndəsi - alim, yazıçı, artist, müəllim, gənc, din xadimi, sovet və partiya idarəsi əməkdaşı, hərbçi, bir sözlə, bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri bir ucdan məhv edildilər. Tək bircə xarici dil bilən şəxsləri də qırırdılar. Ölüm və cəza maşını dayanacaqsız və fasiləsiz işləyirdi. Hər bir "xalq düşməni"nə "məhkəmə" zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı (tək-tək hallarda 20 dəqiqə).

İndi qoy oxucu özü 1936-1937-ci illərdə bir saatda nə qədər adamın güllələnməyə məhkum edildiyini, nə qədər zəka sahibinin - azərbaycanlının güllələndiyini özü hesablasın. Bir gündə 24 saat (96 nəfər), ayda 30 gün (2880 nəfər), 2 il yarımda isə 80 000-dən çox. Bakıda bütün bu quldur tribunal iclaslarını Vışinskinin müavini, bəşər övladının qatili Matuleviç öz əlaltıları Zaryanov və Jiqurla birgə aparırdı. Biz ancaq Bakıdan danışırıq! Kim deyə bilər ki, Azərbaycanın kənd rayonlarında bu fövqəladə üçlüklərin xüsusi iclaslarının qərarları ilə neçə min günahsız məhv edilmişdir? Xüsusi düşərgələrə sürgün edilmiş "xalq düşmənləri"nin ailə üzvlərinin təxmini sayını kim deyə bilər?"

***Ziya Bünyadov,***
***akademik***

"Hənəfi Zeynallı, Yusif Vəzir Çəmənzəminli, Məmməd Cuvarlinski, Ruhulla Axundov kimi güclü və işıqlı insanların nə qədər böyük arzuları ürəklərində boğulub məhv edilmişdi. Neçə-neçə ailə sahibsiz, böyüksüz qalmışdı… Stalinin amansız rejimi, bu rejimin qəddar və qanlı qanunlarını yerinə yetirən məmur və müstəntiqlər, "böyük rəhbər"in "silahdaşlar"ı (o cümlədən bizlərə zərbə vurmaq üçün əlinə fürsət keçmiş ermənilər) dünya durduqca, tarix yaşadıqca nəsillərin mühakiməsindən yaxa qurtara bilməyəcəklər".

***Sani HACIYEV,***
***tarix elmləri doktoru, professor***

# Əli qanlı Pankratov

**XX əsrin əvvəllərindən ortaya çıxan bolşevizm qısa müddət ərzində bütün dünyanın nəzər-diqqətini özünə cəlb etdi, Azərbaycan xalqının taleyində də böyük izlər qoydu. Məlum olduğu kimi, sosializmin təşəkkülü, fəhlə-kəndli hökumətinin qərarlaşması bizim respublikamız üçün daha ağrılı keçmişdir.**

XI ordunun Hərbi İnqilabi Şurası və yeni qurulmuş Sovet hökuməti öz fəaliyyətinin hələ ikinci günü "Müsavat" və "İttihad" partiyalarının rəhbərləri ilə əməkdaşlıq etmək barədə müqavilə imzalamışdı. Lakin bu müqavilə tezliklə Semyon Pankratovun rəhbərlik etdiyi XI ordunun Xüsusi şöbəsi tərəfindən pozulmuşdu. Həmin şöbə, sonra isə Fövqəladə Komissiya (ÇK) kütləvi həbslər aparmağa başlamış, həbs düşərgələri az vaxtda Azərbaycanın qabaqcıl ziyalı nümayəndələrinin hesabına doldurulmuşdu.

S.A.Pankratov kim idi? Əvvəllər adi dənizçi olan bu insan XI ordunun Xüsusi şöbəsinin rəisi, bolşevik istilasının ilk günlərindən 1920-ci ilin iyun ayınadək Azərbaycan Fövqəladə Komissiyasının sədri olmuşdur. Azərbaycanda ilk kütləvi qırğınların, sui-qəsdlərin və repressiyaların təşkilatçılarından idi. Bu, həmin Pankratov idi ki, onun tabeliyində Azərbaycan kommunistlərinin gələcək lideri Mir Cəfər Bağırov xidmət etmişdir. Semyon Andreyeviç Pankratov hələ Bakı hadisələrindən əvvəl "Qanlı Həştərxan" olaylarından məşhur idi.

Bu barədə sosialist emiqrant Melqunov yazırdı: "1919-cu ilin martında Həştərxan fəhlələri tətilə başlamışdı. Onların mitinqi qoşunlar tərəfindən mühasirəyə alınmışdı. Hərbçilər tətilçilərə pulemyotlardan atəş açmış və onlara qumbaralar atmışlar. Səhraya qaçmaq istəyənləri isə süvari atlılar doğrayırdılar. Şəhərdə kütləvi həbslər başlanmış, Moskvaya isə üsyan haqqında təcili teleqram vurulmuşdu. Trotski "amansız cəzalandırma" əmri göndərmişdi və S.M.Kirov, habelə çekistlər - matros Pankratov və quldur Çuqunovun rəhbərliyi ilə edamlara başlanmışdı.

Bərələrdə və gəmilərdə yerləşdirilmiş insanların bir çoxunun boynuna daş bağlayaraq dənizə atırdılar. "Qoqol" gəmisində bir gecədə 180 nəfər batırılmışdı. Güllələnənləri çətinliklə qəbiristanlığa çatdıra bilirdilər. Sonradan başa düşdülər ki, onlar ancaq "proletariat"ı qırırlar və "üsyan" mənzərəsinin daha zəngin alınması üçün üzlərini "burjuylar"a döndərdilər. Zəngin məhəllələrdə yoxlamalar və qırğınlar başlandı. Bu özbaşınalıq aprelin axırınadək davam etdi və təxminən 4 min nəfər qətlə yetirildi".

Pankratov qısa müddətdə - 1920-ci ilin may-iyun aylarında Az FK-ya başçılıq etmişdi. N.Nərimanov Azərbaycana gəldikdən sonra Hərbi-İnqilabi Komitəyə (HİK) şikayət edir ki, FK HİK-lə razılaşdırılmadan adamları güllələyir. Bu məlumatdan sonra Pankratov Az FK-dakı işlərini "milli kadr" Baba Əliyevə təhvil verir və yenidən XI Qızıl Ordunun Xüsusi şöbəsinə qayıdır. Lakin çox keçmir ki, 1920-ci il avqustun 26-da Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu üsyanların yatırılması haqqında məsələni müzakirə edərkən bunun üçün yaradılmış "dördlük"də Xüsusi şöbədən Pankratov da yer alır. Çünki FK o zaman matros Pankratovun rəhbərliyi ilə "daha uğurla" işləmişdi.

1920-ci ilin aprelində hakimiyyət qan tökülmədən ələ keçirilsə də, tezliklə bolşeviklərin müstəmləkəçilik siyasəti Gəncə, Şuşa, Zaqatala, Qarabağ, Lənkəran və digər uyezdlərdə çoxlu üsyanlara səbəb oldu.

1920-1924-cü illərdə 54 genişmiqyaslı silahlı üsyan baş vermişdi. Üsyançıları və onları dəstəkləyən mülki əhalini amansızcasına, məhkəməsiz, istintaqsız yerindəcə edam etmişlər. Tədqiqatçıların yazdıqlarına görə, ümumilikdə 1920-ci ilin aprelindən 1921-ci ilin avqustunadək Azərbaycanda qırmızı terrorun 48 min qurbanı olmuşdu. Həmin insanların təxminən dörddə biri ən iri Gəncə üsyanı (1920-ci il 26-31 may) zamanı öldürülmüşdü.

Gəncə üsyanından sonra onun iştirakçılarından olan 23 zabit, o cümlədən 6 general Nargin adasına gətirilmişdir. Bolşeviklərin əsir götürüldüyü general-mayor Feyzulla Mirzə Qacar Bakıya göndərilmiş və bu adada güllələnmişdir.

1920-ci il iyunun 6-da Gəncə yaxınlığında 79 yüksəkrütbəli azərbaycanlı zabit həbs edilmişdir. Pankratovun əmri ilə onlar da Nargin adasında güllələnmişlər.

Sovet hökuməti üçün narahatlıq yaradan yüzlərlə şəxs Nargin adasına aparılmış və orada öz aqibətini gözləmişdir.

Əli qanlı Pankratov Azərbaycanda kütləvi repressiyaların həyata keçirilməsində əsas simalardan olmuşdur. O, "likvidator" (partiya sənədlərində ÇK-nın ştatında olan siyasi ölüm icraçıları belə adlanırdı) olduğu üçün sovet və rus hərbi mənbələrində heç yerdə adı və şəkli getmir.

***"Azərbaycan"***



ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Birinci Qarabağ müharibəsi şəhidləri dəfn edilib













**Bakı**

Birinci Qarabağ müharibəsində itkin düşdüyü hesab edilən şəxslərdən biri də Ələkbər Əzizağa oğlu Babayev olub. 1992-ci il noyabrın 11-də Ağdərə rayonunda itkin düşən Ələkbərin nəşinin qalıqlarının Tərtər şəhər məzarlığında tapılması bir ailəyə və bütöv bir cəmiyyətə təsəlli gətirdi.

Mərasimə yüzlərlə sakinin, qazilərin, şəhidin ailə üzvlərinin, həmçinin dövlət və ictimaiyyət nümayəndələrinin gəlməsi Vətən uğrunda canından keçən qəhrəmanların əbədi yaşadığını bir daha göstərir.

Bakı şəhəri Sabunçu rayonunun Maştağa qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn olunan Ələkbər Babayev adları Azərbaycan xalqının tarixinə yazılan şəhidlərin şərəfli siyahısına bir daha qayıtdı. Dəfn zamanı hərbi orkestrin ifasında səsləndirilən Dövlət himni bu qəhrəmanların ruhuna ehtiram ifadəsi idi. Yaylım atəşi isə xalqımızın şəhidlərinin xatirəsini yaşatma əzmini təcəssüm etdirdi.

**Göyçay**

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan və şəxsiyyəti müəyyənləşdirilən İsmət Medal oğlu Piriyevin meyitinin qalıqları Göyçay rayonuna gətirilib. O, Beyləqan rayonunda "Peyğəmbər" məzarlığında naməlum şəhid kimi dəfn olunmuşdu.

Şəhidin nəşi rayonun Çərəkə kəndində ailəsinə təhvil verilib və vida mərasimi keçirilib. Vida mərasimində kənd sakinləri, şəhidin ailə üzvləri, qazilər, eləcə də rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Cənazə namazı qılındıqdan sonra şəhidin nəşi Çərəkə kənd Şəhidlər xiyabanında torpağa tapşırılıb, dualar oxunub.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb.

**Şuşa**

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən və şəxsiyyəti dəqiqləşdirilmiş Hidayət Nəsir oğlu Qarayev Şuşada dəfn olunub.

Hidayət Qarayevlə vida mərasimi Yuxarı Gövhər ağa məscidinin qarşısında keçirilib. Mərasimdə Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin, hüquq-mühafizə orqanlarının əməkdaşları və sakinlər iştirak ediblər.

Vida mərasimindən sonra Hidayət Qarayevin nəşi Şuşa şəhər məzarlığında torpağa tapşırılıb.

**Zaqatala**

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan və şəxsiyyəti müəyyənləşdirilən Mahmudov Ramiz Mahmud oğlunun meyitinin qalıqları Zaqatala rayonunda torpağa tapşırılıb.

Şəhid Ramiz Mahmudovun nəşi Zaqatala rayonunda izdihamla qarşılanıb, doğulduğu Aşağı Tala kəndinə gətirilib. Vida mərasimi keçirilib, cənazə namazı qılınaraq şəhidlərimizin ruhuna dualar oxunub.

Kənd qəbiristanlığında keçirilən dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, qazilər, şəhid ailələri, döyüş yoldaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidin nəşi yaylım atəşi altında torpağa tapşırılıb.

**Şəki**

Birinci Qarabağ müharibəsində yaralanaraq itkin düşən, 31 ildən sonra kimliyi müəyyən edilən şəhidlərimizdən biri də Şahid Sabir oğlu Məmmədovdur.

Şəhidlə ailəsinin yaşadığı Şəki rayonunun Orta Zəyzid kəndində vida mərasimi keçirilib. 31 ildir övlad yolu gözləyən, oğlunu axtararkən daha dörd əzizini şəhid verən Kətaim ananın intizarına son verilib.

Vida mərasimində rayon rəhbərliyi, kənd sakinləri, hərbçilər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhid Şahid Məmmədov Orta Zəyzid kənd qəbiristanlığında dəfn olunub.

**Ağdam**

Birinci Qarabağ müharibəsi dövründə - 31 il əvvəl itkin düşmüş hesab edilən və şəxsiyyəti müəyyənləşdirilən mülki şəhid Səfərov Cahangir Səfəralı oğlunun nəşinin qalıqları Ağdam rayonunda dəfn olunub.

Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında keçirilən vida mərasimində rayon sakinləri, icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Vida mərasimindən sonra Cahangir Səfərovun nəşi torpağa tapşırılıb.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb.

**Tərtər**

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan və şəxsiyyəti müəyyənləşdirilən şəhid Mustafayev Möhübbət Qənimət oğlu Tərtər rayonunda dəfn olunub.

Şəhidlə vida mərasimi Tərtər şəhərindəki "Şəhidlər" Abidə Kompleksində keçirilib. Mərasimdə şəhidin ailə üzvləri, yaxınları, Tərtər və Kəlbəcər Rayon İcra hakimiyyətlərinin, hüquq-mühafizə orqanlarının rəhbərləri və əməkdaşları, qazilər, şəhid ailələri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Cənazə namazı qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub.

Sonra şəhidin nəşi Seydimli kənd məzarlığında yaylım atəşi altında torpağa tapşırılıb. Tabuta bükülmüş Azərbaycanın üçrəngli bayrağı şəhidin atasına verilib.

*AZƏRTAC*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 241 (9696) 1 noyabr 2024-cü il CÜMƏ
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Yeni nəsil metro qatarları Bakıda
Prezident İlham Əliyev Bakıda komplektləşdirilən yeni nəsil metro qatarları ilə tanış olub
Azərbaycanda karbon emissiyasının azaldılması istiqamətində ciddi addımlar atılır
Prezident İlham Əliyev Zığ Elektrik Avtobus Parkının fəaliyyəti ilə tanış olub
Murovdan Xankəndiyədək Zəfər yolu
Daxili İşlər Nazirliyinin əməkdaşları Vətən Müharibəsində və antiterror tədbirlərində vəzifə borclarını şərəflə və qəhrəmanlıqla icra etdilər
Qərbin məkri Gürcüstanda puça çıxdı
"Dünyanın ədalətli söhbətə ehtiyacı var"
Aleksandr LUKAŞENKO: "Qlobal təhlükəsizliyin təmin edilməsi üçün işlək mexanizmlər yaratmaq barədə düşünməliyik"
Avropa Parlamenti özü özünü ifşa edir
"Xristian klubu"nun qərəzli qətnaməsini digər kağız parçalarının taleyi gözləyir
Ermənistanda əhali yaşamır, sürünür
Bağlı qapılar arxasında Paşinyana qarşı yeni hərəkat yaradırlar
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



Azercell

## abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, müştərilərə təklif olunan tariflərin optimallaşdırılması, abunəçilərə daha əlverişli və rahat istifadə imkanının təmin edilməsi məqsədi ilə 02.12.2024-cü il tarixindən etibarən aşağıdakı dəyişikliklər tətbiq ediləcək:

1. Fakturasız (SimSim) xətt sisteminə aid nömrələrin abunəçilərinin istifadəsi üçün nəzərdə tutulmuş tarif və xidmətlər daxilində dəyişikliklər:

1.1. "Bölgə" tarif paketi çərçivəsində bölgələrdə ölkədaxili zəngin 1 (bir) dəqiqəsi üçün 0,08 AZN xidmət haqqı tətbiq ediləcək.

1.2. "Azercellim" tarif paketi çərçivəsində ölkədaxili zəngin 1 (bir) dəqiqəsi üçün 0,08 AZN xidmət haqqı tətbiq ediləcək.

1.3. "GəncSim" tarif paketi çərçivəsində ölkədaxili zəngin 1 (bir) dəqiqəsi üçün 0,10 AZN xidmət haqqı tətbiq ediləcək.

1.4. "Simkredit", "Simtaksit", "Ekstra kredit" və "İnternet kredit" xidmətlərinə göndərilən hər sorğu üçün 0,08 AZN xidmət haqqı tətbiq ediləcək.

2. Fakturalı və fakturasız xətt sisteminə aid nömrələrin abunəçilərinin istifadəsi üçün nəzərdə tutulmuş "SuperSən" ("SuperSən 1GB", "SuperSən 3GB ", "SuperSən 6GB", "SuperSən 10GB", "SuperSən 20GB", "SuperSən 30GB") və "Premium" ("Premium 50GB", "Premium 75GB", "Premium 100GB") tarif paketləri çərçivəsində təqdim edilən əsas istifadə imkanı istifadə müddətindən əvvəl bitdikdə, həmçinin müvafiq paketin yenilənməsi üçün nömrənin balansında kifayət qədər vəsait olmadıqda ölkədaxili zəngin 1 (bir) dəqiqəsi üçün 0,08 AZN xidmət haqqı tətbiq ediləcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


## Cəbrayılda keçirilən idman yarışlarının qalibləri məlum olub

**Cəbrayıl şəhəri akademik Mehdi Mehdizadə adına tam orta məktəbdə ilk dəfə müxtəlif idman növləri üzrə keçirilən yarışlar başa çatıb.**

AZƏRTAC xəbər verir ki, 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, Şərqi Zəngəzur Regional Gənclər və İdman İdarəsi və Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə keçirilib.

Futbol, voleybol, dama, kəndirlə mübarizə və basketbol idman növləri üzrə təşkil olunan yarışlarda Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd, Zəngilan rayonu Ağalı kənd və Cəbrayıl şəhəri Akademik Mehdi Mehdizadə adına tam orta məktəbdən ümumilikdə 192 şagird iştirak edib. Komanda oyunlarında birinci, ikinci və üçüncü yeri qazanmış şagirdlər kubok, medallar və diplomlarla təltif olunublar. Dama üzrə yarışlarda fərdi qalib gələn birinci, ikinci və üçüncü yerin sahibi olan şagirdlərə isə diplom və medallar təqdim edilib.

# Ekstremal hava şəraiti iqlim dəyişikliyi ilə əlaqəlidir

**Son illər dünyada baş verən təbii fəlakətlər və bu günlərdə müasir İspaniya tarixindəki ən ölümcül daşqınlar ekstremal hava hadisələri ilə iqlim dəyişikliyi arasında birbaşa əlaqə olduğunu göstərir.**

Bu həftə ölkənin şərq və cənub bölgələrində bir gündə yağan illik yağışdan sonra İspaniyada ölənlərin sayı 160 nəfərə çatıb. Klimatoloqların apardığı sürətli təhlilin nəticələri göstərir ki, qlobal istiləşmə bu cür hadisələrin başvermə ehtimalını iki dəfə artırır və yağışları daha intensiv edir.

London İmperial Kollecində Ətraf Mühit Siyasəti Mərkəzində "World Weather Attribution" (WWA) layihəsinə rəhbərlik edən Friderike Otto deyir: "Şübhə yoxdur ki, bu leysan yağışları iqlim dəyişikliyi ilə güclənib".

Hökumətlər 2015-ci il Paris Sazişinə əsasən, qlobal istiləşməni dayandırmağa çalışmağa razılaşdıqdan sonra da dünya üzrə orta temperaturun yüksəlməsi təhlükəli həddə - 1,5C dərəcəyə yaxınlaşır.

Otto izah edir ki, mədən yanacağı istifadəsi nəticəsində yaranan istiləşmə dərəcəsinin hər bir kiçik hissəsi üçün atmosfer daha çox rütubət saxlaya və bu, daha intensiv yağışlara səbəb ola bilər. Bu ölümcül daşqınlar iqlim dəyişikliyinin cəmi 1,3°C istiləşmə ilə nə qədər təhlükəli olduğunu xatırladır.

BMT hökumətlərin fəaliyyəti ilə iqlim elmi arasında böyük uçurum yaranması barədə xəbərdarlıq edib. Bildirilib ki, mövcud trayektoriya davam edərsə, əsrin sonuna qədər temperatur artımı 3°C-dən çox olacaq.



WWA komandası onlara yerli alim və meteoroloqlarla birgə iqlim dəyişikliyinin nə dərəcədə ekstremal hava şəraitinə səbəb olduğunu və ya onları gücləndirdiyini tez qiymətləndirməyə imkan verən protokol hazırlayıb.

Valensiyadakı ölümcül daşqınlar qrupun texnogen iqlim dəyişikliyi ilə son iyirmi ilin ən ölümcül on ekstremal hava hadisəsi arasında aydın əlaqəni göstərən hesabatı (30 oktyabr) dərc etməyi planlaşdırdığı vaxt baş verib. Ən böyük itki 2010-cu ildə Afrika Buynuzunda təxminən 258 min insanın ölümünə səbəb olan quraqlığa aiddir. 2008-ci ildə Myanmada baş verən Nargis qasırğası 138 min insanın həyatına son qoyub.

Yaddaşlarda qalan ən ölümcül iki hadisə 2022-ci və 2023-cü illərdə Mərkəzi və Qərbi Avropada 90 minə yaxın insanın ölümünə səbəb olan isti dalğaları olub.

Qırmızı Xaç və Qızıl Aypara Mərkəzinin iqlim riski üzrə müşaviri Rup Singh deyir: "Ağır hava nəticəsində kütləvi ölümlər göstərir ki, biz 1.3°C, 1.5°C və ya 2°C-yə hazır deyilik". Onun sözlərinə görə, bütün ölkələr belə halların gələcəkdə daha tez-tez baş verəcəyinə hazırlaşmalıdırlar. Nəticədə emissiyaları azaltmalıyıq.

Bu, BMT-nin Bakıda keçiriləcək iqlim danışıqlarının növbəti raunduna hazırlaşan dünya liderləri üçün əsas mesajdır. Bu il gündəmin əsas mövzusu inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinin öhdəsindən gəlmək və mədən yanacaqlardan asılılığı azaltmaq üçün yeni fondun yaradılmasıdır.

London İmperial Kollecinin Ətraf Mühit Siyasəti Mərkəzinin tədqiqatçısı Coys Kimutai deyir: "COP29 belə təhlükəli hava şəraitinin əsas səbəbi olan mədən yanacaqlardan uzaqlaşmanı sürətləndirməlidir. Bizə itkilər və zərər fondu üçün nəzərdə tutulan əhəmiyyətli maliyyə vəsaiti lazımdır.

COP28-də vəd edilən 700 milyon dollar kasıb ölkələrin hər il uğradığı milyardlarla dollar itki ilə müqayisədə dənizdə bir damladır".

Proqnozlara əsasən, bu il çox güman ki, göstəricilərə görə 2023-cü ili keçərək, tarixin ən isti ili olacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4165
Sifariş 2481

Qiyməti 60 qəpik